# TƏSVİRİ İNCƏSƏNƏT

## DƏRSLİK

5





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Yeganə Cəlilova
Kəmalə Cəfərzadə
Taleh Məlikov

# TƏSVİRİ İNCƏSƏNƏT

# 5

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
Təsviri incəsənət fənni üzrə
DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

## MÜNDƏRICAT

Dekorativ-tətbiqi sənət və biz . . . . . . . . . . . . . . . . 6



## XALQ SƏNƏTİNİN YARADICILIQ MƏNBƏYİ

1. Dekorativ-tətbiqi sənət və zaman . . . . . . . . . . . . . . 8
2. Simvollara çevrilmiş təbiət . . . . . . . . . . . . . . . . 10
3. Azərbaycan daxmasının daxili dünyası . . . . . . . . . . . 13
4. Xalq məişət əşyaları — forma və dekor . . . . . . . . . . 16
5. Xalça naxışları . . . . . . . . . . . . . . . . . . . . . 19
6. Azərbaycan tikmələrində kompozisiya . . . . . . . . . . . 21
7. Tarix və Etnoqrafiya Muzeyləri . . . . . . . . . . . . . 24



## ULU İRSİMİZ — XALQ GEYİMLƏRİ VƏ AZƏRBAYCAN XALÇALARI

8. Xalq geyimləri . . . . . . . . . . . . . . . . . . . . . 30
9. Xovsuz xalçalar . . . . . . . . . . . . . . . . . . . . . 34
10. Azərbaycan Xalça Muzeyi . . . . . . . . . . . . . . . . 38

| | |
|---|---|
| | Müzakirə |
| | Suallar |
| www... | Elektron resurslar |
| | Təchizat |
| | Məlumatın ardı |



## DEKOR — İNSAN, CƏMİYYƏT, ZAMAN

11. İnsanlara bəzək nə üçün lazımdır . . . . . . . . . . . . . 42
12. Qədim Misirdə geyim və dekor . . . . . . . . . . . . . . . 44
13. Qədim Misirin dekorativ-tətbiqi sənəti — simvollarda forma, dekor və rəng . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
14. Qədim Çin geyim ənənələri — simvol və rəng . . . . . . . 50
15. Qərbi Avropanın dekorativ-tətbiqi sənəti. 17-ci əsr . . . . 52
16. Heraldika — gerb və emblemlər . . . . . . . . . . . . . 55
17. Müxtəlif dövr sənətkarlarının yaradıcılığı . . . . . . . . 57



## MÜASİR DEKORATİV-TƏTBİQİ SƏNƏT

18. Müasir incəsənət sərgisi . . . . . . . . . . . . . . . . . 64
19. Keramika . . . . . . . . . . . . . . . . . . . . . . . . 68
20. Bədii şüşə . . . . . . . . . . . . . . . . . . . . . . . . 70
21. Bədii metal — döymə və tökmə . . . . . . . . . . . . . 72
22. Qobelen . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74
23. Zərif batika . . . . . . . . . . . . . . . . . . . . . . . 76
24. Biz “sənətkarıq” . . . . . . . . . . . . . . . . . . . . . 78

## DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BİZ

*Məktəbli dost!*

Dekorativ-tətbiqi sənət haqqında dərslik qarşınızdadır. O sizə dekorativ-tətbiqi sənətin ecazkar dünyasını kəşf etməyə yardımçı olacaq: bu sənətin nə üçün *dekorativ* və nə üçün *tətbiqi* adlandığını başa düşəcəksiniz. Hər bir insan ömrü boyu bu sənət əsərlərinin əhatəsindədir. Bu səbəbdən də onu bilməyə və anlamağa dəyər.

Dərsliklə işləyərkən müxtəlif cəmiyyətlərdə dekorativ-tətbiqi sənətin *nə üçün* qədim zamanlardan yaranıb inkişaf etdiyini öyrənəcəksiniz.

Bu sənətdə bədii dilin nə üçün *şərti olduğunu*, onun rəsm və illüstrasiyadan nə ilə fərqləndiyini, ümumiyyətlə, *incəsənət dilinin* nə olduğunu biləcəksiniz.

4-cü sinifdə olduğu kimi, bu il də doğma yurdumuzun, müxtəlif ölkə və xalqların incəsənətilə yaxından tanış olacaqsınız.



"Xalq sənətinin yaradıcılıq mənbəyi" bölməsində dekorativ-tətbiqi sənətin *bədii şərtilik*, ornamentlərlə zəngin olan obrazlı dilinin xüsusiyyətləri ilə tanış olacaqsınız.



"Ulu irsimiz — xalq geyimləri və Azərbaycan xalçaları" adlanan ikinci bölmədə varislik ənənələrinin qorunub saxlanmasını öyrənəcəksiniz.



"Dekor — insan, cəmiyyət, zaman" adlanan üçüncü bölmə — sizə müxtəlif dövr və cəmiyyətlərdə dekorativ-tətbiqi sənətin mahiyyətini anlamağa yardımçı olacaq.



"Müasir dekorativ-tətbiqi sənət" adlı dördüncü bölmədə — müasir dekorativ sənətin rəngarəngliyi, yaradılan əsərlərin müasirliklə uyğunlaşan yeni dili ilə tanışlıq cəmlənmişdir.

Ümid edirik ki, bu dərslik sizin dekorativ-tətbiqi sənət aləmi ilə ünsiyyətinizi daha əhəmiyyətli edəcək, incəsənətin rəngarəng dünyası haqqında biliklərinizi daha da zənginləşdirəcəkdir.

# XALQ SƏNƏTİNİN YARADICILIQ MƏNBƏYİ

Xalq sənəti çoxəsrlik ənənələri və mədəni irsimizi qoruyur, inkişaf etdirir, nəsildən-nəslə ötürərək yaşadır.

El sənətkarlarının yaratdığı dulusçuluq, oyma naxışlı daş və ağac nümunələri, bədii metalişləmə, tikmə və naxışların sirrini başa düşməkdə bu bölmə sizə yardımçı olacaq.

Bu günümüzə qədər gəlib çatan qədim obrazlardakı işarə və simvolların nə ifadə etdiyini öyrənəcəksiniz.

Xalq yaradıcılığında gözəlliyin əsas ifadə vasitəsi — təbiəti tərənnüm edən forma, naxış və ornamentlərlə tanış olacaq və yaradıcılıq işlərində tətbiq edəcəksiniz.



# 1. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ ZAMAN

**BİLƏCƏKSİNİZ:**

- Dekorativ-tətbiqi sənətin qədim kökləri haqqında.
- Dekorativ-tətbiqi sənətin insan həyatında rolu.

Əhatəsində yaşadığımız əşyalar müxtəlifdir. Onların bəziləri sadə, digərləri isə zövqlə bəzənmiş, özünəməxsus yaraşığa malikdir. Bu əşyalar dekorativ-tətbiqi sənətə aiddir.

“Dekorativ-tətbiqi sənət” sözünü əvvəllər də eşitmisiniz, ancaq çox güman ki, mahiyyətinə varmamısınız. “Dekor” — latın dilindən tərcümədə “bəzəmək” deməkdir. “Dekor olunmuş”, yəni “bəzədilmiş”, “bəzəkli” mənasını daşıyır.

Xatırlayın

Əşyalar dekorativ-tətbiqi sənətin hansı növünə aiddir?















- Dekorativ-tətbiqi sənət nə zaman yaranıb?
- Onun növləri haqqında nə deyə bilərsiniz?

Qədim insan ilk əşyanı daşdan, gildən və ağacdan düzəldərkən onların üzərində çəkdiyi naxış-təsvirlər dekorativ-tətbiqi sənətin başlanğıcı olmuşdur. Buna görə də, dekorativ-tətbiqi sənət — incəsənətin ən qədim növü sayılır.

*Qədim insanın əşyalar üzərində yaratdığı ilk naxışlar*



Əşyaları bəzəyən təbiət motivləri — bitki, quş və heyvan təsvirləri qeyri-adi görünür və reallıqdan fərqlidir. Onlar rəssam tərəfindən ümumiləşdirilərək obrazlara, işarələrə çevrilir. Bu, dekorativ-tətbiqi sənətin özünəməxsus bədii dilidir. Bu dil əşyanın gözəlliyini, dekorunu və mənasını anlamağa yardım edir.



*Bitki (qanqal)*



*Quş (şanapipik)*



*Heyvan (dəvə)*

Azərbaycanın dekorativ-tətbiqi sənət tarixi çox qədimdir. Dulusçuluq, şüşə məmulatı, oyma naxışlı daş və ağac nümunələri, bədii metalişləmə, bədii parça və tikmələr, toxuculuq, xalçaçılıq, zərgərlik — yurdumuzun ən geniş yayılmış dekorativ-tətbiqi sənət sahələrindəndir.

Dekorativ-tətbiqi sənət, bizi əhatə edən aləm kimi geniş və müxtəlifdir. Planetimizdə çoxlu sayda xalq yaşayır. Hər bir xalqın özünəməxsus əşya forması, ornamenti, obraz və motivləri, simvolları, rəng uyğunluğu mövcuddur.

Bu gün də dekorativ-tətbiqi sənət keçmişdə olduğu kimi insanın gündəlik həyatını cəlbedici edir, onda bayram ovqatlı mühit yaradır.

? Dekorativ-tətbiqi sənətin əsas xüsusiyyətləri hansılardır?

Rəngli karandaşlar
Flomasterlər
Quaş

**Yaradıcı fəaliyyət.** Mətndə tanış olduğunuz dekorativ-tətbiqi sənət sahələrindən birinə aid nümunələr çəkin.

# 2. SİMVOLLARA ÇEVRİLMİŞ TƏBİƏT

**BİLƏCƏKSİNİZ:**

- Xalq sənətində simvolların mənası.
- İnsanın istifadə etdiyi əşyaları bəzəməkdə məqsədi.

Əfsanəvi quş, nəcib at, insan fiquru, qeyri-adi ağaclar... Nəsil-dən-nəslə ötürülən bu obrazları kim və nə zaman düşünmüşdür? Onların mənası nədir?

Ulu əcdadımız düzəltdiyi əşyaları sadə ornamentlərlə bəzəyərdi. O, dünyanın sirli, müəmmalı görünən hallarını başa düşməyə can atar və dünya haqqında təsəvvürlərini şərti işarələrlə ifadə edərdi.

**Yaradıcı araşdırma: xalq sənətində simvollar və onların mənası**

Günəş simvolu — dairəvi, çevrə daxilində çarpaz xətt, çiçək formasında təsvir edilərdi. Günəş simvolunun əsas cəhəti — mərkəzdən ətrafa yayılan şüalar idi.

Çevrəsiz, romb və çarpaz xətlərin hüdudsuz təsvirləri bərəkət simvolu sayılardı.




Dalğalı, maili və sınıq xətlər suyu simvolizə edərdi.

Çevrə daxilində romb fiquru, kiçik dairələr, düz — üfüqi xətt torpağın simvolu idi.

Əcdadlarımız bu simvol-naxışlarla əşyaları bəzəyərdi.

Xalq sənətində istifadə olunan Günəş, torpaq, bərəkət və su simvollarının yerləşdiyi rəmzi forma haqqında danışın.

## Yaradıcı araşdırma: **xalq sənətində təbiət simvolları**

Xalq sənəti nümunələrində budaqlı, bəzən isə iri gülləri və ya meyvələri olan bitki təsvirlərinə rast gəlmək olar. Bu — ***həyat ağacıdır***. Xalq təsəvvüründə həyat ağacı — həmişəyaşar, çiçəklənən təbiət və xoşbəxtlik arzulayan simvol hesab olunur.



*Dəvə, keçi* və *at rəmzi* — xalq sənətində ən qədim və sevilən obrazlardan idi. Qədim zamanlarda insanlar inanardılar ki, *quşlar* öz cingiltili nəğmələri ilə qışın ayazını qovur, qanadlarında gözəl baharı və qızmar yayı gətirərdilər. Quşlar işığı və istiliyi simvolizə edərdi.
Bu obrazlar xalq sənətində qoruyucu və bərəkət rəmzləri sayılardı.



*Quş*



*Dəvə*



*Ceyran*

- Həyat ağacı simvolunda təbiətin hansı obrazlarının cəmləşdiyini və onların mənasını izah edin.
- Təbiət obrazlarını simvolizə edən işarələr hansılardır?
- Simvolların mənası, onların oxşar və fərqli əlamətləri nədir?

Qədim insan təsəvvürlərini rəng və obrazlarla da ifadə edərdi. Rəng həm də simvolik məna daşıyardı. Məsələn, qırmızı və sarı rənglər — həyat, ağ rəng — saflıq, paklıq rəmzi sayılardı.

Əsrlər boyu xalq sənəti nəsildən-nəslə ötürülərək qorunur və bu qayda ilə inkişaf edir.

Xalq sənəti nümunələrində simvolların mənasını müəyyən etməyə çalışın.

*Sinəbəzək*



*Taxça pərdəsi*





*Saxsı külçəbasan (fətir üzərini naxışlamaq üçün qəlib )*



*Polad qalxan*



*Mücrü*

İŞARƏ təsvir deyil. O hər kəsə aydın olan, mənası başa düşülən SİMVOLDUR.

Flomasterlər
Quaş
Plastilin

Yaradıcı fəaliyyət. Əşyalar üzərində qədim naxışları təsvir etməyə çalışın. “Bədii tikmə üzərindəki naxışları” — flomasterlə, “xalça naxışlarını” — quaşla, “ağacoyma naxışlarını” — isə plastilin üzərində cızaraq yarada bilərsiniz.

# 3. AZƏRBAYCAN DAXMASININ DAXİLİ DÜNYASI



**BİLƏCƏKSİNİZ:**
- Daxmanın daxili quruluşu.
- Məişət əşyalarının təsnifatı.

Dağ döşünə və yamaclara səpələnən *alaçıq, çovustan, koma, daxma* el içində daha bir adla çağırılardı: *doğma ocaq*. İnsan üçün *doğma ocaq* — doğma torpaq, xeyirxahlıq, güzəran anlayışları kimi yaxın idi. Evin daxilində — *interyerində* qayda-qanun yaratmağa çalışan insan, onu mənalı edən obrazlarla bəzəyərdi.

Tanış olun: **daxma interyerindəki elementlər**

Divarlarda xüsusi oyuqlar — düzbucaq, piramida və ya oval formalı taxça və rəflər daxma interyerində mebeli əvəz edərdi.

Taxçalardan tikmə ilə bəzədilmiş pərdələr asılardı. Mütəkkə və döşəkçələr, palaz və kilim, çıraq və bərəkət sayılan çörək boğçası, sandıq, cəhrə, hana, beşik və qab-qacaqların daxmada öz yeri olardı.




**İnteryer** — tikilinin daxili hissəsi

Yuxarı başda dayanan *sandıq* daxmanın bütün sirlərini qoruyardı. O, nazik metal lövhə ilə üzlənmiş dördkünc taxta qutudur. Bayram libaslari, zinət əşyaları olan mücrü bu sandıqda saxlanardı.

Kəndli evində təsadüfi əşyaya rast gəlməzsən: yataq dəsti, cəhrə, nehrə, səhəngin daxmada öz yeri var. Şamdan və lampa isə ya pəncərədə, ya da ki, rəflərin birində ayrıca qoyulardı.

Yaradıcı araşdırma: **daxmanın interyeri**

Artırmanı keçib daxmaya daxil olarkən, təbiətin ruhu duyulan mühit gözə dəyərdi. Tavan altındakı dərinlikdə, divarboyu uzanan ləmədə məcməyi, sini, sərpuş, kəfkir, gil və mis küpələr düzülərdi. Ləmədən asılan üçbucaq formalı *pərdəbaşı* otağa xüsusi yaraşıq verərdi.

Yuxarı başda, xalça üzərində ev sahibinin silahları asılardı. *Mütəkkə və döşəkçələr də* bu hissəyə döşənərdi. Ən vacib hadisələr burada baş verər, ən əziz qonağa bu yerdə süfrə açılardı. Daxmanın bərəkəti sayılan *çörək boğçası* isə tavandan asılardı.




Azərbaycan daxmasının interyerində əsas əlamətləri sadalayın.

**Ləmə, rəf** — tavanın altında, divarboyu, qab-qacaq düzülən (dərinlik) yer.
**Taxça** — qab-qacaq üçün nəzərdə tutulmuş, rəflərə bölünmüş oyuq.
**Camaxatan** — yorğan-döşək, sandıq qoymaq üçün divarda açılan dördkünc oyuq.

Daxmada ən çox yer tutan — *hana* adlanan toxuculuq dəzgahı idi. Onda qadınlar xalça toxuyardılar. Ən gözəl xalçalar bu sadə dəzgahda yaranardı.

Döşəməyə sərilən əlvan rəngli zolaq və naxışlarla bəzənmiş xalça növləri — palaz və kilim də bu dəzgahın məhsulu idi.

- Tabloda hansı məişət səhnəsi təsvir olunub? Burada sizə tanış olan məişət əşyaları haqqında bildiklərinizi söyləyin.



*Abbas Hüseyni.*
*"Azərbaycan ailəsi"*

Sadə kəndli daxması əsl müdriklik ocağı idi. Ailənin güzəranı ilə bağlı olan əşyalar daxmaya öz nizam və harmoniyası ilə rahatlıq gətirərdi.

Daxma interyeri Azərbaycan xalqının yaratdığı "əsl incəsənət" nümunəsi sayıla bilər.

Flomasterlər
Quaş
Akvarel

**Yaradıcı fəaliyyət.** Azərbaycan daxmasının interyerini çəkməyə çalışın. Əvvəlcə divarın künc hissəsini şaquli xətlə çəkin, sonra döşəmə və tavanın sərhədini qeyd edin. *Pəncərə, taxça, ləmə və camaxatanların* yerini müəyyən etməyi unutmayın. İnteryerə dekor və əşyalar əlavə edərək rəsmi tamamlayın.



- Daxma və müasir evin interyeri nə ilə fərqlənir?
- Müxtəlif mənbələrdən digər xalqların kəndli evinin interyeri ilə tanış olun.

# 4. XALQ MƏİŞƏT ƏŞYALARI — FORMA VƏ DEKOR



**BİLƏCƏKSİNİZ:**
- Forma və dekorun uyğunluğu haqqında.
- Məişət əşyalarının dekor xüsusiyyətləri.

Gündəlik məişətdə, əməkdə insana yardım edən və bayramların bəzəyi sayılan xalq sənəti nümunələri — qab-qacaqlarla yaxından tanış olaq.

Necə istifadə edildiyindən, formasından asılı olmayaraq, onların üzərindəki naxışlar xeyirxahlıq və səadət rəmzləri sayılardı.

Onların hər birinin özünəməxsus hazırlanma şəraiti, emaletmə üsulu olduğu üçün əşya üzərindəki bədii obrazlar da müxtəlif alətlərlə işlənir: gil əl ilə yoğrulub yapılır, ağac iskənə ilə oyulur, mis zərb və kəsici alətlə döyülür və cızılır, bürünc isə əridilərək qəlib formaya tökülür.

Sənət nümunələri: məişət əşyalarında **dekor.**

Gildən hazırlanan kasa və *güvəcin* üzərindəki naxışlar təbiət obrazlarını tərənnüm edir. Ancaq onların təsvir üslubu fərqlidir: kasanın dekoru simmetrik və rəngli, güvəcin dekoru isə həndəsi və birrənglidir.



*Kasa*



*Güvəc*

**Güvəc** — gildən hazırlanan dar boğazlı qab, küpə.
**Şir** — dulusçuluq məmulatlarının üzərinə çəkilən şəffaf, qoruyucu məhlul.

Yaradıcı araşdırma: məişət əşyalarında **dekor.**

*1. Şərbət qaşığı. 2. Məcməyi. 3. Sərnic. 4. Bardaq.*

1



2





3



4

Şərbət qaşığı və məcməyi, sərnic və küpə üzərindəki dekor hansı üsulla işlənib? Əşyaların naxışları hansı məna daşıyır?

Həm **naxışlar**, həm də **forma** məişət əşyasının bəzəyi sayıla bilər. Əşyaların formasına diqqət yetirin.

Yaradıcı araşdırma: məişət əşyalarında **forma.**

Qədim gil qablar



*Şamdan*



*Suqabı*



*Dolça*

Bu qabların forması hansı təbiət obrazlarını ifadə edir?
Nə üçün qədim insan bu qabları təbiət obrazlarına bənzədərdi?

Məğrur siluetli bürünc dolça üzərində tovuz quşu təsviri, dimdiyə oxşayan boğaz – forma və obrazın vəhdətinə əsl nümunədir. Quş obrazı sanki qabda olan bərəkətin sayıq keşikçisidir.

Yaradıcı araşdırma: məişət əşyalarında **forma və dekor**.



*Dolça* *Sərpuş* *Kuzə* *Səhəng*

Qabların forması, naxışları, istifadəsi haqqında nə deyə bilərsiniz? Qablar hansı üsullarla işlənmişdir?

Sini ilə sərpuş süfrəyə gələrsə, deməli, ailədə əlamətdar hadisə baş verib. Elimizin şah xörəyi — plov bu qabda sürfəyə gələrdi. Mis məcməyi qapağının forması döyüşçü dəbilqəsini xatırlatsa da, üzərindəki dekor əmin-amanlıq, bərəkət elementləri ilə bəzənib.

Rəngli karandaşlar
Quaş
Flomaster

Yaradıcı fəaliyyət. Qədim qablardan ibarət natürmort çəkin. Əvvəlcə onların formasını fikirləşin, sonra dekoru formaya uyğunlaşdırın. Çəkəcəyiniz qabın hansı materialdan olduğunu göstərməyə çalışın. Onların aşağıda verilmiş siluet formalarından da istifadə edə bilərsiniz.



# 5. XALÇA NAXIŞLARI

**BİLƏCƏKSİNİZ:**
- Xalça naxışlarının adı və mənası.
- Haşiyə motivlərinin müxtəlifliyi.

Təbiətimizin təravəti hopan xalçalar öz əlvanlığı və simvol zənginliyi ilə digər məişət əşyalarından fərqlənərdi.

İnsan dünyanı necə gördüyünü, elin həyat tərzini bu xalça çeşnilərində simvolların şərti dili ilə həkk edərdi. Xalçanın ruhu — onun naxış və rəngindədir. Hər naxışın öz adı, öz mənası olardı.

Yaradıcı araşdırma: **xalçanın naxış elementləri**

Naxış elementlərinə diqqət yetirsəniz görərsiniz ki, təbiətdə belə bitki, quş və heyvan mövcud deyil. Onlar *stilizə* olunmuş simvol və işarələr dünyasıdır.



*Ulduz Dilikli Çəngəl Damğa Buta Kilimgülü Bitki Div Əjdaha (əfsanəvi məxluqlar)*



*Şanapipik quşu Tovuz quşu Ördək Fərə Xoruz Hindtoyuğu*

- Təbiət obrazları hansı xüsusiyyətlərə görə qruplaşdırılmışdır?
- Şərti, stilizə edilmiş obrazlar real təsvirlərdən nə ilə fərqlənir?



*Dəvə Ceyran İt*

**Stilizə** (stilizasiya, üslub) — obyektin formasını şərti olaraq, yaraşıq məqsədilə dəyişdirməkdir. Bu zaman ikincidərəcəli elementlər itir, əsas detallar isə qabardılır. Yəni stilizasiya — **şərti ifadə üslubu**dur, obyektin sadələşdirilmiş (ümumiləşdirilmiş) təsvir dilidir.

## Yaradıcı araşdırma: **haşiyə motivlərinin müxtəlifliyi**

Azərbaycan xalçalarını bəzəyən **haşiyə — naxış zolaqlarında** müxtəlif təbiət və həndəsi **motivlər** təsvir olunur və xalçanın kompozisiyasını tamamlayır. Stilizə olunmuş heyvan, quş və bitki təsvirləri bu haşiyələrin əsas elementləridir.

Xalçanın naxış elementləri
*Təbiət motivləri*

Haşiyədə naxış elementləri
*Həndəsi motivlər*




Haşiyənin mərhələlər üzrə çəkilmə ardıcıllığı:

*Bitki motivli haşiyə*




*Heyvan motivli haşiyə*




Quaş
Flomasterlər
Rəngli karandaşlar

**Yaradıcı fəaliyyət.** Müxtəlif motivlər fikirləşin və onların əsasında haşiyə yaratmağa çalışın. Bu haşiyəni yalnız bitki, quş, heyvan və ya hər üçünün birgə təsvirindən yarada bilərsiniz. Haşiyəni müxtəlif xətlərlə də tamamlamaq olar. Naxış ritmindən yaranan ornamentdəki rəng seçiminə diqqət yetirin: haşiyənin fonu tünd, naxış elementləri isə kontrast rənglərdə ola bilər.

Xalça naxışlarında əsas simvollar hansılardır?
Xalça üzərindəki naxışlar necə yaranıb?

**Motiv** — ornamental süjet elementi.
**Ornament** — naxışın ardıcıl düzülüşü. Ornamentdə elementlər müəyyən qaydada yerləşir.

# 6. AZƏRBAYCAN TİKMƏLƏRİNDƏ KOMPOZİSİYA

**BİLƏCƏKSİNİZ:**
- Tikmənin müxtəlif üsulları.
- Tikmə sənətində açıq və qapalı kompozisiya.

Xalçalarımızı bəzəyən, naxış və simvollara çevrilmiş obrazlar *tikmə* üsulu ilə parça və geyimləri bəzəyərdi. Xalq tikmələrində təsvir motivləri, kompozisiya quruluşu və istifadə olunan materiallar fərqli olar və *naxıştikmə* adlanardı.

Tikmə növləri müxtəlifdir: *güləbətin, təkəlduz, muncuqtikmə* və digərləri. Tikmələrin sirri nəsildən-nəslə ötürülərdi: nənədən anaya, anadan qıza.

**Güləbətin** üsulunun əsas xüsusiyyəti — birrəngli, qabarıq siluetli naxışların olmasıdır. Tünd-qırmızı, bənövşəyi, yaşıl rəngli parçalar üzərindəki naxışlar qızıl və gümüş saplarla tikilir. "Güləbətin" sözü *gülsifət, bəniz, sima* kimi səslənir. Bu tikmə üsulu ilə tikilən kompozisiyalarda *dalğavari, çarpaz, sınıq xətlərdən* istifadə olunur.

Yaradıcı araşdırma: **tikmələrdə açıq kompozisiya.**

**Güləbətin** tikmə üsulu. *Araqçın*

Araqçın üzərində birrəngli sadə naxış-işarələr təkrarlanaraq ornamental haşiyə yaradır.
Haşiyə – naxışlı zolaq **açıq kompozisiyanı** təşkil edir.



- Araqçın üzərindəki naxışlar, düz və dalğavari xətlər nəyi simvolizə edir?
- Güləbətin tikmə üsulunun əsas xüsusiyyətləri hansılardır?
- Açıq kompozisiyanın qurulmasında nəyi nəzərə almaq lazımdır?

**Təkəlduz** — "tək", "əl", "düzmək" sözlərinin birləşməsindən yaranmışdır, mahir Şəki sənətkarlarına məxsusdur. Qara, tündqırmızı, göy rəngli parça üzərində rəngarəng ipək saplarla işlənən təkəlduz — kontrastlığı, relyef konturları ilə digər tikmələrdən fərqlənərdi. Simmetrik kompozisiya, bir-birinə sarmaşan bitki və quş təsvirləri təkəlduz üsuluna xas olan əlamətdir.

Yaradıcı araşdırma: **tikmələrdə qapalı kompozisiya**

Dekorativ kompozisiyanın əsas ifadə vasitələri — forma, xətt, rəng və ton çalarlarının ritmidir.

**Təkəlduz** tikmə üsulu. *Balışüzü*



*Qapalı kompozisiya* əşyanın formasına uyğun quruluşa malikdir.
*Qapalı kompozisiya nümunələri. Sxem*



- Kompozisiya sxemlərinin ümumi görünüşü hansı simvolları xatırladır?
- Təkəlduz tikməsinin əsas xüsusiyyətləri hansılardır?
- Qapalı kompozisiyanın qurulmasında nəyi nəzərə almaq lazımdır?

**Muncuqtikmə.** Rəngli ipək sap və qaytanlardan (buruqlu sap) əlavə digər materiallar — *tozmuncuq, pilək, mirvari* ilə də əşyaların üzərini bəzəyərdilər. Sıra ilə sapa düzülmüş rəngarəng muncuq zərrəcikləri parça üzərində sayrışan ulduzlara bənzəyər, istənilən silueti canlandırardı.

Yaradıcı araşdırma: **tikmələrdə açıq və qapalı kompozisiya**

**Muncuqtikmə** üsulu. *Tənbəki (tütün) kisəsi*






**Piləktikmə** üsulunda dairəvi metal lövhəciklər parçada çəkilmiş naxış üzərinə tikilərək onun formasını təkrarlayır. Nəbati motivlər, müxtəlif quş və heyvan, bəzən isə əfsanəvi məxluq olan əjdaha təsviri piləktikmə naxışlarının əsas motivləridir.

Yaradıcı araşdırma: **tikmələrdə açıq və qapalı kompozisiya**

**Piləktikmə** üsulu. *Balışüzü*






Rəngli karandaşlar
Flomasterlər
Rəngli qələmlər

Yaradıcı fəaliyyət. Tikmə növlərindən birinin eskizini hazırlayın. Ona xas olan əlamətləri göstərməyi unutmayın. Tikmənin digər növləri haqqında məlumat toplayın. Tanış olduğunuz tikmələrin oxşar və fərqli cəhətini izah etməyə çalışın.

Muncuqtikmə və piləktikmə üsullarının əsas xüsusiyyətləri hansılardır? Qapalı və açıq kompozisiyalara harada rast gəlmək olar?

# 7. TARİX VƏ ETNOQRAFİYA MUZEYLƏRİ

**BİLƏCƏKSİNİZ:**
- Ölkəmizin tarix və etnoqrafiya muzeyləri ilə tanışlıq.
- Etnoqrafiya muzeyinin ekspozisiyaları.

Tarixi və mədəni irsimizi qoruyub saxlayan muzeylərimizə səyahət edək. **Milli Azərbaycan Tarixi Muzeyi** və **Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu** yurdumuzun bütün dövrlərinə aid maddi-mədəniyyət abidələrinin toplandığı, öyrənildiyi və nümayiş etdirildiyi məkandır.

## MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

**Yaranma tarixi.** Milli Azərbaycan Tarixi Muzeyi məşhur neft sahibkarı, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin 1895–1901-ci illərdə tikdirdiyi və yaşadığı sarayda yerləşdirilmişdir. Muzey ilk tamaşaçılarını 1921-ci ildə qəbul etmişdir.



İlk dövrlərdə muzeyin *tarix, arxeologiya və etnoqrafiya, botanika və zoologiya, mineralogiya və geologiya, təsviri incəsənət və bədii sənət, xalq təhsili şöbələri*, həmçinin *qədim abidələrin mühafizəsi komissiyası* fəaliyyət göstərirdi.

**Arxeologiya fondunda** ilk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixi öyrənilir. 80 mindən artıq materialın toplandığı *bu fondda* — daş, mis-daş, tunc, ilk dəmir, antik və orta əsrlər dövrünün maddi-mədəniyyət nümunələri qorunur və nümayiş etdirilir.

Ekspozisiya 1

**ARXEOLOGİYA**

Vitrinlərdəki saxsı qablar antik sənətkarlığa həsr olunmuşdur. Sənətkar saxsı qab hazırlayarkən onu ya heyvan formasında düzəldir, yaxud ona heyvan formalı qulp qoyur, ya da üzərinə heyvan təsviri həkk edirdi.







- Ekspozisiya nədir?
- Ekspozisiyadakı saxsı qablar hansı obrazları xatırladır?

**Etnoqrafiya fondu** Azərbaycan xalqı haqqında məlumatları — onun adət-ənənələrini toplayaraq tədqiq edir və öyrənir. Fondda olan eksponatların sayı 9 minə yaxındır. Fondda mis, bürünc, tunc, ağac, çini, gil, daşdan hazırlanmış əmək alətləri, məişət əşyaları saxlanılır.

Ekspozisiya 2 **ETNOQRAFİYA**

- Mis şərbətqabı, qəndil (çıraq), kasa, dolça, *şirli* və şirsiz saxsı küpələr, nehrə, ağac və metaldan düzəldilmiş əmək alətləri, zərif çini qablar Azərbaycanın dekorativ-tətbiqi sənət inciləri hesab olunur.
- Etnoqrafiya fondunda qorunan eksponatların digər hissəsi Azərbaycanın maddi mədəniyyətinə aid olan geyimlər və tikmə sənətinin nümunələridir.





- Etnoqrafiya və arxeologiya fondlarının əsas fəaliyyəti nədən ibarətdir?
- Vitrindəki qab və geyimin forma, dekor və materialı haqqında bildiklərinizi söyləyin. Onlardan necə istifadə edirdilər?

**Arxeologiya** — yunan sözü, “archaios” — *qədim* və “logos” — *söz, elm* deməkdir. Qədim maddi mədəniyyət nümunələrini öyrənən elm.
**Etnoqrafiya** — yunan sözü, “etnos”— *xalq*, “qrafis” isə *təsvir etmək* deməkdir. Etnoqrafiya elminin başlıca vəzifəsi — xalqın mədəni irsini öyrənmək, tarixini tədqiq etmək və daha da zənginləşdirməkdən ibarətdir.
**Antik** — latın sözü, “antiquus” — *qədim* deməkdir.

Azərbaycanın məşhur xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin xatirəsini əbədiləşdirmək məqsədilə Milli Azərbaycan Tarixi Muzeyində doqquz otaqdan ibarət H.Z.Tağıyevin xatirə muzeyi yaradılmışdır.







*H.Z.Tağıyevin xatirə muzeyi (fraqmentlər)*

## QALA DÖVLƏT TARİX-ETNOQRAFİYA QORUĞU

Arxeoloji abidələrlə zəngin olan Azərbaycanın Abşeron diyarındakı *qədim yaşayış məskənlərindən biri də* ***Qala*** *kəndidir.*

Bakı kəndləri arasında Qala kəndi həm tarixinə, həm də Abşeronun mədəni irsində tutduğu yerinə görə seçilir. Bu kənd dövlətimiz tərəfindən mühafizə edilən ərazi olduğundan, onu Qala qoruğu adlandırırlar. Qoruq Qala qəsəbəsinin tarixi hissəsində yaradılıb.




"Qala" sözü *məğlubedilməz yer* mənasındadır. Xalq təsəvvürlərində isə kəndin adı "Qəllə" sözündəndir, yəni "taxıl, bərəkət" mənasında işlənir.

## QALA ARXEOLOJİ - ETNOQRAFİK MUZEY KOMPLEKSİ

Kənd 1988-ci ildə *qoruq* adını alıb. 2008-ci ildə *Qala qoruğu* ərazisində, açıq səma altında ilk **Arxeoloji-Etnoqrafik Muzey Kompleksi** yaradılıb. Kompleksin ərazisində Abşeron yarımadasının *arxeoloji və memarlıq abidələri* toplanılıb və bərpa olunub.

Yaradıcı araşdırma: **kənd evinin interyeri və məişəti.**

Qala kəndinin ənənəvi yaşayış evləri iki-üç otaqdan ibarət olub. Otağın biri mətbəx, digər hissəsi isə qonaq və ya yataq otağı kimi istifadə olunurdu. Mətbəx hissədə təndir, ocaq və *suaxan* yerləşirdi. Mətbəxin içərisində gildən təndir və ocaq olardı. Mətbəx hissədə xörək hazırlayanda, həm ocağın, həm də təndirin tüstüsü tikilinin damı üstündə **dubla** adlanan baca vasitəsilə sovrulardı.



*Mətbəx*

Qonaq otağı, əsasən, *taxça, ləmə və camaxatanlardan* ibarət idi. *Ləmələr,* adətən, pəncərə açımlarının hündürlüyündə, divar boyunca uzanar, *kasalar, mis qablar, sinilərlə* bəzədilərdi. Divarlarda müxtəlif ölçülərdə taxçalar düzəldilərdi.





Otaqların qızdırılması üçün *kürsü* istifadə olunardı. Ailənin qızınması üçün xörək bişirildikdən sonra ocaqdan yığılan kömür manqala tökülərdi. Ailə manqalın ətrafına yığışaraq onun üstünə örtülmüş yorğanın altında qızınardı.
Bu yorğan — ***kürsü yorğanı*** adlanar və məxsusi kürsü üçün sırınardı.



- Müasir yaşayış evində *dubla, taxça, ləmə, camaxatan və kürsü yorğanını* nə əvəz edir?
- Keçmiş zamandan indiyə kimi insanların yaşayış tərzi necə dəyişmişdir?

**Yaradıcı araşdırma: sənətkarlıq: dulusçuluq və dəmirçilik**

Qala kəndində xalq sənətinin ən qədim növlərindən olan *dulusçuluq və dəmirçilik sənəti* daha çox inkişaf etmişdi.





Kiçik dəmirçilik emalatxanaları *nalbənd* adlanardı. Orada ancaq nal hazırlanar və at ayağına (dırnağına) nal vurulardı.





- Müasir dövrə aid dulusçuluq və dəmirçilik sənətinin hansı nümunələri ilə tanışsınız?
- İnsanlar bu gün onları öz məişətində necə istifadə edir?
- Azərbaycanın daha hansı qoruğunu tanıyırsınız?

*Qala—Dövlət Tarix-Etnoqrafiya qoruğunun* xalqımızın tarixi, milli və mədəni dəyərlərinin mühafizə edilməsi, bərpası, həmçinin onların təbliği sahəsində əhəmiyyəti böyükdür.

Rəngli karandaşlar
Pastel təbaşir
Flomasterlər

**Yaradıcı fəaliyyət.** Tarix və Etnoqrafiya muzeyinə aid ekspozisiya çəkin. Bu, sənətkarlıq nümunələri və ya yaşayış evi də ola bilər. Bu tapşırıqda keçmiş və müasir dövrü birləşdirərək çəkə bilərsiniz: məsələn, müasir ev interyeri çəkin, keçmiş dövrə aid məişət əşyaları ilə bəzəyin. Siz məişət əşyalarından ibarət olan bu ekspozisiyanı sinif otağında və ya evdə də yarada bilərsiniz.

www... www.azhistorymuseum.az, http://gala-museum.org

- Milli Azərbaycan Tarixi Muzeyi ilə Qala — Dövlət Tarix Etnoqrafiya Qoruğunun əsas məqsədi nədir? Onların oxşar və fərqli xüsusiyyətləri haqqında nə öyrəndiniz?
- Tarixi, milli və mədəni dəyərləri özündə cəmləşdirən hansı xarici ölkə muzeyləri haqqında məlumatınız var?

# ULU İRSİMİZ — XALQ GEYİMLƏRİ VƏ AZƏRBAYCAN XALÇALARI

Əcdadlarımızın həyat salnaməsi xalq geyimlərinə və xalça sənətinin naxışlarına, simvollarına hopub.

Xalçanın ruhu — onun naxışlarındadır. Hər naxışın öz adı, öz mənası var. Bu işarələrin dili ilə tanış olacaq, onları bəzəyən simvolların mənasını biləcəksiniz.

Xalq geyimləri və xalça növləri haqqında məlumat alacaq və maddi-mədəniyyət nümunələrimizlə tanış olacaq və onları bir-birindən fərqləndirməyi bacaracaqsınız.



# 8. XALQ GEYİMLƏRİ



**BİLƏCƏKSİNİZ:**
- Xalq geyimlərinə xas olan cəhətlər.
- Xalq geyimlərini bəzəyən naxışlar.

Təbiətin obrazı, insanın məişət və həyat tərzi xalq geyimlərində öz əksini tapmışdır. Geyim ənənələri müxtəlif olsa da, əsas xüsusiyyətləri eynidir — istifadədə rahatlıq, gözəllik və rəngarənglik.



*Xalq geyimlərinin müxtəlifliyi*

Mürəkkəbliyi və gözəlliyi ilə fərqlənən qadın geyimləri rəngarəngliyi ilə əlvan dağ çiçəklərini, yamacların yaşıllığını, qürub çağının al-qırmızı rənglərini xatırladardı.

**Qadın üst geyimi**nin əsas cəhəti onun *çoxqatlı (üst-üstə) və qırçınlı* olması idi, *üst köynəyi, arxalıq, çəpkən, ləbbadə, kürdü, küləcə və eşməkdən* ibarət olardı. *Məxmər, tirmə, ipək, atlaz* və zərxara parçalardan tikilərdi. Ağ, qırmızı, göy, sarı, yaşıl və tünd rənglər daha çox istifadə olunardı.

Qadın geyimində bəzək və zinət əşyaları da mühüm rol oynayardı. Nəsillərdən nəsillərə ötürülən bu məmulatlar ailəyə məxsus idi və təbiət obrazlarını simvolizə edən naxışlarla işlənilərdi.

Sinədən asılan *həmayil* xüsusi əhəmiyyət kəsb edərdi: bəzəyə oxşasa da, onun əsas funksiyası *bədnəzərdən* qorumaq idi. Həmayili ən qiymətli miras kimi nəsildən-nəslə töhfə verərdilər.

## Yaradıcı araşdırma: **xalq geyimləri — forma və elementlər.**

Geyimi bəzəyən naxış-simvollar qadını şər qüvvələrdən qoruduğu düşünülərdi. *Yaxa* və *qolçaqdakı* simvollar — boynu və əlləri, *balaq* naxışları isə ayağı qoruyardı. Qadın ümid edərdi ki, *balağı* yerlə sürünən geyimin naxışı torpağa məhsuldarlıq bəxş edir, həm də ondan həyat gücü alır.




*Mirvari ilə bəzənmiş* **həmayil** *(amulet)*





***Qotaz** — yuxarı hissəsi bir yerə yığılaraq bağlanılmış saplardan ibarət saçaqlı bəzək.*




Qadın geyiminin elementləri *(üst köynəyi, arxalıq, çəpkən, ləbbadə, kürdü, küləcə və eşmək)* haqqında məlumat toplayın. Geyimə gözəllik verən naxış-simvolların mənasını izah edin.

**Kişi üst geyimi** *ipək, atlaz, kətan* və digər parçalardan tikilərdi. *Papaq, üst köynəyi, arxalıq, çəpkən, çuxa (çiyinlik)* və *şalvar* kişi geyiminin əsas hissələri idi. Maldarlıqla məşğul olanlar *yapıncı geyərdilər*. Yağış və qar suyu keçirməyən, insanı bürküdən (istidən), soyuq və küləkdən qoruyan yapıncı həm də yorğan-döşək kimi istifadə olunardı.

**Çuxa** — kişi üst geyimi — *vəznəli* və *çərkəzi* adlanardı: bel hissədən büzməli və ya qırçınlı olardı. Tirmə və mahud kimi parçalardan hazırlanardı. *Ağ çuxa* — bəxtəvərlik, *qara çuxa* — bədbinlik əlaməti idi. Kəmərdən isə *xəncər (silah)* asılardı.

Yaradıcı araşdırma: **xalq geyimləri — forma və elementlər.**




**Kişi geyimi** *(üst köynəyi, arxalıq, çəpkən, çuxa* və *şalvar)* haqqında məlumat toplayın. Geyim və onun elementlərində naxış-simvolların mənasını izah edin.

Məişət və mədəniyyəti əks etdirən incəsənət əsərləri tarixin canlı şahididir. Bu əsərlər müxtəlif üslubda olsa da, onların bizə çatdırdığı hadisələr, obraz və geyim təsvirləri tarixi keçmişimizin zəngin irsidir.

**Kişi baş geyimlərinin müxtəlifliyi.** Forma və materialına görə papaq adları müxtəlif olardı: şələpapaq (saçaqlı, tüklü dəri), çalpapaq, şişpapaq, qələmi papaq.

*Şələ papaq (börkü)* *Çalpapaq* *Şişpapaq*





*Qələmi papaq*



*Şəbkülah (gecə papağı)*



*Q.Qaqarin.* "Qarabağ bəyi"



*B.Əfqanlı.* Geyim eskizi

Yaradıcı fəaliyyət. Qadın və ya kişi geyiminin xarakterik xüsusiyyətlərini öz rəsminizdə göstərməyə çalışın. Burada o dövrün insanlarının həyat tərzi, məşğuliyyətini göstərməyi unutmayın.
Geyimin forma və elementlərini, naxış və bəzəklərini elə çəkin ki, geyim sahibinin yaşına, ailə vəziyyətinə uyğun olsun.

- Kişi və qadın baş geyimləri hansılardır?
- Kişi və qadın geyimlərinin əsas xüsusiyyətləri haqqında nə öyrəndiniz?
- Xalq geyimi müasir geyimdən nə ilə fərqlənir?

# 9. XOVSUZ XALÇALAR

**BİLƏCƏKSİNİZ:**
- Xovsuz xalça növləri və onların səciyyəvi əlamətləri.
- Xalça növlərini bəzəyən ornament motivləri.

İlmələrə hopan doğma təbiət, insanların həyat tərzi — simvol və naxışlara çevrilərək xalçaları bəzəyərdi.

Elimizin qız-gəlinləri kiçik yaşlarından toxuculuq sənətinin sirlərinə yiyələnər, doğma ocaqlarını öz əlləri ilə bəzəyərdilər.

Yurdumuzun müxtəlif guşələrində toxunan *xovsuz* xalça növləri rəng çaları, kompozisiya quruluşuna və ornament zənginliyinə görə bir-birindən fərqlənərdi.

Ən qədim dövrlərdən yurdumuzu şöhrətləndirən xalçaçılıq — xalq sənətinin əsas qollarından biridir.

Yaradıcı araşdırma: **xovsuz xalça növləri**

PALAZ
*Xüsusiyyəti:* sadə və qaba olur.
*Material:* kətan və yundan toxunur.
*Dekor-naxış:* sadə, enli və ensiz, rəngli üfüqi zolaqlardan, bəzən zolaq üzərində sadə həndəsi naxışlardan ibarətdir.
*İstifadə təyinatı (funksiya):* döşəməyə salınar, geyim kimi istifadə edilərdi.



*Palaz fraqmentinin sxemi. Nümunə*



"Palaza bürün, elnən sürün" — el məsəlini necə başa düşürsünüz?



## CECİM

*Xüsusiyyəti:* ensiz və uzun, nazik və hamar toxunuşlu olur.
*Material:* yun.
*Dekor-naxış:* şaquli, rəngarəng zolaqlar üzərində sadə həndəsi formalı naxışlardan ibarətdir.
*İstifadə təyinatı (funksiya):* döşəməyə salınar, bu toxuma üsulundan döşək üzlüyü, mütəkkə, pərdə, kişi və qadın üst geyimlərinin tikilməsində istifadə olunardı.

*Cecim naxışları. Nümunə*



## KİLİM

*Xüsusiyyəti:* yüngül, ikiüzlüdür. Üzü və astarı (arxası) eyni olduğundan, hər iki tərəfini də istifadə edirlər.
Material: yun.
*Dekor-naxış:* sadə həndəsi fiqurlardan — üçbucaq, romb və trapesiyadan ibarət naxışlar olur.
*İstifadə təyinatı (funksiya):* döşəməyə salınır.



*Kilim naxışının fraqmenti və onun sxemi*



*Kilimgülü*



*Kilim naxışının sxemi*



*Kilim naxışı. Nümunə*



ŞƏDDƏ

Xüsusiyyəti: divardan asılarkən saçaqları yanlarda olur. Sadə və süjetli kompozisiyalıdır.

Material: yun.

Dekor-naxış: üfüqi sırada dəvə karvanı, atlılar, dəvə və sarvan fiqurlarının ritmik cərgəsi bu xalçaların ənənəvi bəzək süjeti sayılardı.

*İstifadə təyinatı (funksiya):* döşəməyə salınar, divardan asılardı.



*Şəddə naxışının sxemi*



*Dəvə naxışı* *Sarvan* *Haşiyə*

Adətən xalça hanada şaquli vəziyyətdə toxunur. Divardan asılan şəddənin saçaqları isə yanlarda olur. Bu halda onun üfüqi naxışları necə toxunur?

ZİLİ və VƏRNİ

*Xüsusiyyətləri:* iri xalıdır, iri naxış elementləri kvadrat formalarda təkrarlanır. *Material:* yun. *Dekor-naxış:* heyvan, quş və həndəsi ornamentlərlə, “S” hərfini xatırladan naxışla bəzənərdi. Bu naxış həm su, həm də “əjdaha”nın stilizə edilmiş simvolu hesab olunur. *İstifadə təyinatı (funksiya):* döşəməyə sərilir.

*Zili*









*Naxış elementləri*

*Vərni*





*Naxış elementləri*






SUMAX
*Xüsusiyyəti:* böyük ölçülü, tərs üzündə kilkəli iplik çıxıntıları olur.
*Material:* yun.
*Dekor-naxış:* kompozisiyası *medalyon — göl* adlanan mərkəzi hissə və haşiyələrdir. Bitki və heyvan motivləri həndəsi formalardan ibarətdir. Fonu tünd qırmızı və tünd göy rəngli olur .
*İstifadə təyinatı ( funksiya ):* döşəməyə sərilir.

*Göl naxışı və onun elementləri*





*Haşiyənin naxış elementləri*



Xovsuz xalçaların adları, növ və bəzəkləri müxtəlif olsa da, əsas təyinatı doğma ocağa — yurda rahatlıq və yaraşıq gətirmək idi. Gün-güzəranın sevinc və xoşbəxtlik rəmzi olan bu xalçalar “məişət xalçaları” da adlandırılardı.

**Sumax** — bitki adıdır. Narıncılı qəhvəyi rəng bu bitkidən alınardı. Sumax üçün hazırlanan iplikləri bu rəngə boyayardılar. Müəyyən vaxt keçdikdən sonra bu rəng çaları qəhvəyili qırmızı rəng alardı.

A4, A3
Flomasterlər
Quaş
Rəngli karandaşlar

**Yaradıcı fəaliyyət.** Tanış olduğunuz xovsuz xalça növlərindən birinə aid nümunə yaradın. Ona xas olan naxışları, rəng həllini, xüsusiyyətləri nəzərə almağı unutmayın.

- Xovsuz xalça növlərinin fərqli və oxşar cəhətləri hansılardır?
- Nə üçün onlar “məişət xalçaları” adlanır? Fikrinizi əsaslandırın.

# 10. AZƏRBAYCAN XALÇA MUZEYİ

**BİLƏCƏKSİNİZ:**
- Azərbaycan Xalça Muzeyinin ekspozisiyası.
- Xalçaçılıq məktəblərinə xas olan cəhətlər.

Azərbaycan Xalça Muzeyinin nadir toplusu xalqımızın milli mədəniyyətinin zəngin xəzinəsidir. Bu muzeydə qədim xalça və xalq tətbiqi sənəti nümunələri ilə birgə müasir dövr rəssam və xalq sənətkarlarının ən nümunəvi əsərləri də toplanmışdır. Xalça Muzeyi dünyada, xəzinəsindəki nadir xalçaların dəyərinə və əhəmiyyətinə görə ən böyük xalça kolleksiyası, xalça sənəti üzrə birinci, nüfuzlu, ixtisaslaşmış muzeydir. Onun kolleksiyasına min dörd yüzə yaxın xalça, tikmə, geyim, mis qablar, zərgərlik əşyaları, şüşə, taxta və keçə məmulatları daxildir.



*Xalça Muzeyinin binası*

Muzeyin ekspozisiyasında rəng çalarları, çeşniləri və texnoloji toxunma üsulları ilə seçilən xovsuz xalçalarla yanaşı, Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi klassik xalça məktəblərinə məxsus olan xalçalar nümayiş etdirilir. Onlar öz kompozisiya və ornament quruluşuna, eləcə də rəng həllinə görə ən yaxşı nümunələrdəndir.

Yaradıcı araşdırma: **xalçaçılıq məktəbləri — xovlu xalçalar**



QUBA XALÇAÇILIQ MƏKTƏBİ

*Xüsusiyyətləri:* ornamentlər bitki motivləri ilə xarakterizə olunur.

*Dekor-naxış:* əsas elementləri sol-sağ tərəflərdə igidlik və ərlik rəmzi — “qayçı” və “buynuz” naxışları, orta sahənin mərkəzində “hindtoyuğu”, onun kənarlarında isə meyvə ağaclarının yarpaqları və *səkkizguşəli göl* təsvir olunur. Orta sahəsi, adətən, tünd göy, bəzən isə tünd qırmızı olur.

*“buynuz” naxışı*





*“qayçı” naxışı*



*“Pirəbədil” xalçası*

## ŞİRVAN XALÇAÇILIQ MƏKTƏBİ

*Xüsusiyyətləri:* mürəkkəb ornamentlər və çoxlu sayda insan, quş, məişət təsvirləri ilə xarakterizə olunur.

*Dekor-naxış:* kompozisiyalar ritm üzərində qurulub, isti koloritə malikdir.



*"Şilyan" xalçası*





## QARABAĞ XALÇAÇILIQ MƏKTƏBİ

*Xüsusiyyətləri:* kompozisiya ustalığı, qeyri-adi fantaziya, kolorit əlvanlığı ilə seçilir.

*Dekor-naxış:* üfüqi simmetriya, ovçuluq süjeti əsaslıq təşkil edirdi. Ov səhnələrinin ancaq atributları, simvolları göstərilmişdi, kompozisiya baxımından heyvan təsvirlərinə çox yer verilirdi.



*"Malıbəyli" xalçası*

## BAKI XALÇAÇILIQ MƏKTƏBİ

*Xüsusiyyətləri:* daha yumşaq olması, rənglərin intensivliyi, bədii elementlərin orijinallığı və naxışların incəliyi ilə seçilir.

*Dekor-naxış:* həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir.





*"Xilə Buta" xalçası*



*"Çıraqlı" xalçası. Gəncə məktəbi*



*"Qaymaqlı" xalçası. Qazax məktəbi*

## GƏNCƏ VƏ QAZAX XALÇAÇILIQ MƏKTƏBİ

*Xüsusiyyətləri:* kontrast rəng çalarları, altıbucaqlı göllər bu xalçaların səciyyəvi cəhətləridir.

*Dekor-naxış:* müxtəlif həndəsi formalarla, çoxqatlı haşiyələrdəki ornament bolluğu ilə digər xalçalardan fərqlənir.





TƏBRİZ XALÇAÇILIQ MƏKTƏBİ
*Xüsusiyyətləri:* fon rəngləri *dolğun qırmızı, tünd göy və açıq sarı olur.*
*Dekor-naxış:* bitki və məişət motivləri, mürəkkəb ornamentlər, ortada və künclərdə medalyonlar yerləşir.

*"Şeyx Səfi" xalçası*

Muzeyin kolleksiyasında qiymətli metaldan hazırlanmış zərgərlik məmulatları, zinət əşyaları və silahlar, çini, ağac və daş üzərində oyma ilə işlənmiş əşyalar, bədii tikmə, milli geyimlər, bədii metal məmulatları kimi xalq tətbiqi sənət nümunələri nümayiş etdirilir.





*Ekspozisiya (fraqmentlər)*

Rəngli karandaşlar
Flomasterlər
Quaş

Yaradıcı fəaliyyət. www... www.azcarpetmuseum.az
Xalçaçılıq məktəblərindən birinə aid ekspozisiya çəkin. Ona xas olan kompozisiya quruluşunu, ornamentin formasını və koloritini göstərməyə çalışın.

*Ekspozisiyanın ümumi görünüşü*




- Xalçaçılıq məktəblərinin fərqli xüsusiyyətləri nədir? Onların kompozisiya, ornament və rəngləri haqqında nə deyə bilərsiniz?
- Azərbaycan xalçaları hansı dünya muzeylərində və hansı Avropa rəssamlarının əsərlərində öz əksini tapmışdır?

# DEKOR — İNSAN, CƏMİYYƏT, ZAMAN

Bu bölmədə dekorativ-tətbiqi sənətin insan və cəmiyyətin həyatında oynadığı rolu haqqında biləcəksiniz.

Dekorun insanların cəmiyyətdə rolunu müəyyən etdiyini, onlar arasında necə ünsiyyət yaratdığını anlayacaqsınız.

Müxtəlif dövr və ölkələrin incəsənətində dekorativ-tətbiqi sənətin necə yarandığının və inkişaf etdiyinin şahidi olacaqsınız.

Geyim və interyer haqqında bilikləri yaradacağınız rəsmlərdə tətbiq etsəniz, onları daha da mənalı etmiş olacaqsınız.



# 11. İNSANLARA BƏZƏK NƏ ÜÇÜN LAZIMDIR

**BİLƏCƏKSİNİZ:**
- İnsan özünü niyə bəzəyir?
- Geyim və bəzəyin insan həyatında rolu.

Ən qədimdən insan özünü və istifadə etdiklərini bəzəyərdi. Qədim ovçu vəhşi heyvan dişlərindən düzəldilmiş boyunbağı gəzdirərdi. Boyunbağıda olan dişlərin sayı ovlanan heyvanların sayına bərabər olardı. Bu işarə ovçunun qəbilə sakinləri qarşısında bacarıq və gücünün nümayişi idi.

Döyüşçülər hücumdan qabaq bədənlərini qorxunc naxışlarla bəzəyərdilər ki, onları həm qorusun, həm də düşməndə vahimə yaratsın.

Qəbilə başçısı lələklərdən dəbdəbəli baş geyimi, əlvan bəzəkləri və bədənindəki döymələri əyləncə xatirinə gəzdirmirdi. Belə bəzənməklə o, tayfada özünün xüsusi mövqeyini bildirirdi.

Yaradıcı araşdırma: **insan mövqeyinə uyğun geyim və bəzəklər.**

Geyim və bəzəklərin əsas xüsusiyyətləri, fərqli və oxşar cəhətləri haqqında nə bilirsiniz?



*Qədim ovçular*



*Dini ayinləri icra edən qədim insan*



*Qəbilə başçısı və döyüşçü*

Keçmiş zamanlarda əlamətdar günlərdə Şərq və Qərb hökmdarları qızıl və gümüşü saplarla işlənmiş, qiymətli daş-qaşlarla bəzədilmiş təmtəraqlı libas geyinərdilər.

Yaradıcı araşdırma: **insanın cəmiyyətdəki rolunu müəyyən edən geyim və bəzəklər.**

Hökmdarın geyimi, taxt-tacı — əzəmət, güc və şan-şöhrət təcəssümü idi.




*Şərq hökmdarı. İran şahı Fətəli şah Qacar*




*Qərb hökmdarı. İngiltərə və Şotland kralı I Yakov*

Bu gün insanın geyiminə görə zabit, idmançı, müəllim olduğunu, həmçinin dekoruna əsasən — hakim otağını, idman zalını asanlıqla müəyyən etmək olur.

Beləliklə, geyim və əşyalar insanın cəmiyyətdə və həyatda mövqeyini əks etdirir.

Dekorativ sənətin bütün nümunələri ***insanların bir-biri ilə əlaqəsini müəyyən edən xüsusiyyətdir***.
***Bəzəmək*** — əşyaya məna vermək, sahibinin rolunu müəyyən etməkdir.

Flomaster
Pastel təbaşir

Yaradıcı fəaliyyət. Mövzu üzrə hər hansı bir dövrə aid süjetli rəsm çəkməyə çalışın. İnsanın mövqeyini geyim və bəzək vasitəsilə göstərməyi unutmayın.

- Bəzək insanlara nə üçün lazımdır?
- İnsanın mövqeyi hansı vasitələrlə cəmiyyətdə ifadə olunur?

## 12. QƏDİM MİSİRDƏ GEYİM VƏ DEKOR

**BİLƏCƏKSİNİZ:**
- Qədim misirlilərin geyimi.
- Kostyumun cəmiyyətdəki mövqeyi və rolu.

Bizi bir neçə minilliklər ayıran, qeyri-adi, sirli və möcüzələrlə dolu ilk mədəniyyət ocağı sayılan Qədim Misirə səyahət edək.

Mavi *lotosa* bənzəyən Nil çayı Afrikanın cansız səhrasını yarıb keçir. Nil vadisinin qızmar günəşi və rütubətli isti iqlimi misirlilərin geyiminə də öz təsirini göstərib: ağappaq, yüngül **geyim** gündən qaralmış bədəndə daha da ağ görünür.

Ekskursiya: **Qədim Misir.**







*Lotosun real (1) və dekorativ (2) təsviri*

*Xəritədə Nil çayı lotos çiçəyinə bənzəyir.*

**Lotos** — şanagüllə çiçəyi. Qədim Misirdə gözəllik və əbədi həyat simvolu sayılardı.

Misir hökmdarı **firon**un geyimi onu ətraf mühitdən fərqləndirər, cəmiyyətdə yüksək mövqe tutduğunu bildirərdi.

Firon və onun əyanları başlarına arxadan hörük formasında yığılmış və çiyinlərə sallanmış zolaqlı yaylıq — ***klaft*** bağlayardılar. Zolaqlar göy və qızılı rəngdə olardı.

Yaradıcı araşdırma: **Qədim Misir hökmdarlarının geyimi və hakimiyyət nişanları.**

Fironun başındakı tac ilahi qüvvələrin nişanı idi və müqəddəs simvollarla bəzənərdi. Dairəvi formalı *yaxalıq* qiymətli metal və daş-qaşla bəzənərdi. Üst geyiminin əsas hissəsi belbağı ilə belə bərkidilən *önlük* idi. Üçbucaq formanı xatırladan önlüyün üstündən bəzəkli kəmər taxılardı. Firon və əyanları palma, papirus, və dəridən səndəl geyərdilər.
Firon arvadının rəngli emaldan hazırlanmış qrif və ya lotos təsvirli baş geyimi olardı.







*Qədim Misir hökmdarı III Ramzes*




**Klaft** — zolaqlı baş yaylığı.
**Urey** — qoruyucu ilan.
**Qrif** — kərkəs başlı, fantastik quş.

• Hakimiyyət nişanları — *əyilmiş əsa* və *üçquyruq qamçı* (şallaq), eləcə də, *asma saqqal* hökmdarın ləyaqət və qüdrətinin nişanəsi idi.

• Nə üçün hakimiyyət nişanları göy və qızılı rəngdə olardı?






Kraliçanın *kalaziris* adlanan dar, zolaqlı üst geyimi çiyindən qayışla asılardı. Onun paltarı keyfiyyətli materialına, işləmə və dekora görə fərqlənərdi. Paltarın üzərindən zəngin ornamentli yaxalıq — Günəşi xatırladan *sinəbənd* taxardılar.






Kəndli geyimi sadə tikişli, kətan parça və qaba dəri, gildən hazırlanmış adi bəzəklərdən ibarət idi.



*Sadə misirlilərin geyimləri*

Özündə yalnız geyimi deyil, parik və saç düzümünü, baş örtüyünü, səndəli, müxtəlif əlavələr — kəmər, yaxalıq, zinət əşyalarını cəmləşdirən kostyum insanların cəmiyyətdə tutduğu mövqeni və rolunu müəyyən edərdi.



Firon Tutanxamonun *dəfn maskası*

Firon Tutanxamonun ***dəfn maskası*** dekorativ-tətbiqi incəsənətin şah əsəri sayılır.

İyirmi yaşlı hökmdarın siması — zolaqlı baş örtüyü və *hakimiyyət nişanı* ilə bəzənib.

Maskanın qızılı şəfəqi hökmdarı Günəşə bənzədir.



*Misir hökmdarının arvadı Nefertiti*



*III Tutmosun arvadının baş geyimi*



*Kalaziris geyinmiş kübar qadın heykəli*

Qədim Misirdə dekorativ-tətbiqi sənət öncə fironların şan-şöhrətini vəsf edərdi. Eyni zamanda dekor — fironların güc, əzəmət, ölməzlik, misirlilərin əbədi həyat haqqında təsəvvürlərinin təcəssümü idi.

Flomaster
Pastel təbaşir

**Yaradıcı fəaliyyət.** Qədim Misir hökmdarının geyim xüsusiyyətlərini öz rəsminizdə göstərməyə çalışın. Geyimin xüsusi işarə və simvollarını, hansı mövqe tutduğunu göstərməyi unutmayın.

- Fironun geyimində hakimiyyət rəmzini bildirən əsas element nə idi?
- Qədim Misir geyimi və xalq geyimlərimizin fərqini izah edin.

# 13. QƏDİM MİSİRİN DEKORATİV-TƏTBİQİ SƏNƏTİ — SİMVOLLARDA FORMA, DEKOR VƏ RƏNG

**BİLƏCƏKSİNİZ:**

- Qədim misirlilərin dekor elementlərində qoruyucu simvol və işarələr.
- Qədim Misir — nəbati ornamentin vətəni.

Qədim Misirin mahir ustalarının — dulusçu, bənna, nəqqaş, metaləridən, toxucu və zərgərlərin yaratdıqları sənət nümunələri qeyri-adi dekorativliyi, bədii dəyəri ilə seçilərdi.

Saray zərgərlərinin əl işləri qızıl, qiymətli daş-qaş əsl cah-calal nümunəsi sayılardı.

Yaradıcı araşdırma: **dekorativ simvollar sistemi**

Firon Tutanxamonun sinə bəzəyi, bu simvolları özündə cəmləşdirib. Bəzək əşyasının quruluşu Misir hökmdarının ölməzliyini və qüdrətini simvolizə edir.




*Tutanxamonun sinə bəzəyi*    *Simvol və işarələr*

**Bu, maraqlıdır**

Qoruyucu sağ göz — Günəşi, sol isə — Ayı ifadə edərdi.

Qədim Misiri nəbati ornamentin vətəni adlandırmaq olar. Çünki bu ölkədə bitkiyə sitayiş edər və onu ilahi qüvvə hesab edərdilər. *Lotos* və *qamış* Qədim Misirin dövlət rəmzləri idi.

Yaradıcı araşdırma: **nəbati ornament motivləri və simvolik rənglər.**
Misirdə ən əhəmiyyətli simvol — ornamentlərin əsas motivi — *lotos* bitkisi idi. Dekorativ-tətbiqi sənətə xas olan daha bir ornament motivi, iri yelpiyə bənzər yarpaqları olan *palmetta (xurma ağacı yarpaqlarına oxşar bəzək)* və *papirus* tropik bitkisi idi.



*Qədim Misirin nəbati ornamentləri və elementin sxemi*



*Papirus çiçəyinin formasını xatırladan sütun başlıqları və gövdəsi*



*Palmetta bitkisinin yarpaqları ilə bəzədilmiş sütun*

*Qədim Misirdə rəng də simvolik məna daşıyardı:*

- *qızılı-sarı — Günəş*
- *gümüşü-ağ — Ay*
- *yaşıl — həyatı, təbiətin canlanmasını və məhsuldarlığını*
- *mavi — tanrını, səma və suyu*

- Qədim Misirin dekorativ-tətbiqi sənəti sizi nə ilə təəccübləndirdi?
- Qədim Misirdə hansı nəbati motiv ən əsas sayılardı?
- Qədim Azərbaycan və Qədim Misirin dekorativ-tətbiqi sənət sahələrində oxşar və fərqli cəhətlər hansılardır?

Quaş
Flomasterlər
Rəngli karandaşlar

Yaradıcı fəaliyyət. Qədim Misirin dekorativ sənətinə aid nümunə fikirləşin və çəkin. Bu, günəşi simvolizə edən boyunbağı, sinə bəzəyi və ya bilərzik ola bilər.
Əşyaların formasını fikirləşin, xarakterik işarə-simvollardan istifadə edərək, üzərini bəzəyin. Bu ölkənin dekorativ sənətinə xas olan rəngləri göstərməyə çalışın. Dekorativ simvollardan istifadə edərək nəbati ornament və ya haşiyə də yarada bilərsiniz.

# 14. QƏDİM ÇİN GEYİM ƏNƏNƏLƏRİ — SİMVOL VƏ RƏNG

**BİLƏCƏKSİNİZ:**
- Qədim Çin geyimində rəng və simvolik məna.
- Geyim öz sahibi haqqında hansı məlumatlar verə bilər.



İnsanı əhatə edən əşyalar arasında onun ən çox bağlı olduğu geyimdir. Geyimin forma və dekorunu, gözəlliyi haqqında təsəvvürlərin rolunu araşdırmaq üçün Qədim Çinə səyahət edək.

Qədim Çində sarı rəng — qızıl, zinət rəngi, əjdaha isə *imperator* simvolu sayılardı. Böyük dövlətin idarəçiliyində imperatora yardım edən yüksək məmurların geyimlərinin də öz *fərqləndirici işarələri* vardı.

Yaradıcı araşdırma: **geyimdə quş və heyvan təsvirləri, rəngin mənası.**
Uzunömürlülük simvolu sayılan ağ durna böyük rütbəli məmurun xələtinin sinəsində — birinci, yüksək rütbəyə işarə idi. Hərbi məmurun libasını bəzəyən pələng, aslan, bəbir təsvirləri rütbəyə uyğun tikilərdi.
Məmur papağının yuxarı hissəsi büllur, şüşə, bürüncdən hazırlanan kiçik kürəciklərlə bəzədilərdi. Material, ölçü və rəng fərqi də rütbədən asılı olardı. Yüksəkrütbəli məmurun baş geyimindəki kürəcik yaqutdan olardı.



*Kvadrat formalı tikmə*



*Məmur geyimləri və papaqları. Çin*



*İmperator və hərbçilərin geyimləri*

İmperator geyimindəki sarı rəngi Çin dekorativ sənətinin daha hansı sahələrində görmək olar?





Yaradıcı araşdırma: **qadın kostyumu — simvol və rəng.**

İmperator ailəsinin üzvləri, yüksək məmur, alim, kübar xanımlar uzun qolları yerə dəyən ipək xalatlar geyinərdilər. Xəfif ipək yüksək təbəqələrdə üstünlük sayılardı. Hətta ipək alveri edən tacirlərə də bu parçadan libas geymək qadağan idi.

Ustalıqla bəzədilmiş bu ipək geyimin naxışlarının öz mənası vardı. Məsələn: kəpənək — xoşbəxtlik və sevinc, gül-çiçək — əsil-nəcabət, zənginlik və baharın gəlişini bildirərdi. Saray xanımları mürəkkəb formalı saç düzümlərinə qızıl və gümüşdən sancaqlar taxardılar. Geyimi dikdabanlı ipək başmaqlar tamamlayırdı. Zadəgan kostyumunun əsas hissəsi olan kəmər — rəngı, materialı və bəzəyi ilə də fərqlənərdi.



Geyimın rəngı rütbəyə görə seçilərdi: imperator — sarı, döyüşçülər — ağ və qırmızı, gənc döyüşçülər — mavi, əyanlar isə qəhvəyi rəngli libaslar geyinərdilər.

Çin kəndliləri gündəlik iş üçün rahat, qaba parçadan tikilmiş sadə paltarlar geyinərdilər.



*Çin kəndliləri*

Geyimin öz sahibi haqqında hansı məlumatlar verdiyini indi təsəvvür edə bildinizmi?

- Kişi və qadın geyim bəzəklərində hansı simvol və rəngə üstünlük verilirdi?
- Qədim Misir və Çin geyimləri arasında fərqli və oxşar xüsusiyyətlər nədir?

Quaş
Flomaster
Pastel təbaşir

Yaradıcı fəaliyyət. Qədim Çin geyimi çəkməyə çalışın. Onun kimə aid olduğunu müəyyənləşdirən naxış, rəng və simvolları istifadə edərək rəngləyin.

# 15. QƏRBİ AVROPANIN DEKORATİV-TƏTBİQİ SƏNƏTİ. 17-ci ƏSR

**BİLƏCƏKSİNİZ:**

- Geyim tərzi və insanın cəmiyyətdə mövqeyi.
- Qərbi Avropanın saray interyeri və məişət əşyaları haqqında.

17-ci əsrdə Qərbi Avropanın dekorativ-tətbiqi sənəti — forma, naxış və rəngi ilə Qədim Misir və Çin incəsənətindən fərqlənirdi.

Bu dövrün kostyumları olduqca təntənəli və çoxsaylı bəzəklərlə möhtəşəm görünər, **aristokrat** zövqünə və həyat tərzinə uyğun olardı.

Fransa kralı 14-cü Lüdovik hər zaman geyimlərində cah-calal və büsatın zənginliyini nümayiş etdirməyə çalışardı. Dəbin əsas qanuni daşıyıcısı olan kral fransız aristokratları üçün nümunə idi. Onun kostyumunu almaz və brilyantlar, rəngli daş-qaşlar, qızıl və gümüşlər bəzəyərdi. Kostyumun cah-calalı — kralın idarə etdiyi dövlətin çiçəklənməsindən xəbər verməyilə yanaşı, başqa dövlətlər arasında onun nüfuzunun artmasına işarə idi.



*Kral 14-cü Lüdovik*

**Bu, maraqlıdır**

Qızıl saplarla bəzədilmiş geyimi yalnız kral və ailəsi geyinə bilərdi. Sarayda daha bir qayda var idi: kraldan başqa, bütün kişilər şlyapasını çıxarmalı idi.

Yaradıcı araşdırma: ***kostyum*** **— forma, naxış, geyim elementləri.**




Azərbaycan milli geyimi ilə Qərbi Avropa kostyumu arasında oxşar və fərqli xüsusiyyətləri izah edin.

Beləliklə, ***kostyum*** — *insanın cəmiyyətdə müəyyən təbəqə və ya qrupa aid olduğunu göstərən nişan, simvol sayılardı.*

Bu gün də dekor cəmiyyətdə eyni funksiyanı daşıyır. Qədim vaxtlardan müasir dövrədək dekor həyat tərzinə qayda gətirir, insanlar arasında ünsiyyət yaradır, onların kim olduğunu müəyyən edir.

**Aristokrat** — kübar, əsilzadə.
**Jüstokor** — uzun, yaxasız, cibli kişi üst geyimi.
**Bafta** — güləbətin və ipək saplardan toxunmuş qaytan.

**Yaradıcı araşdırma: saray — interyer, mebel, forma, naxış, təmtəraq.**

Saray interyerinin divar naxışları, mebel və nəfis əşyalar saraya xüsusi yaraşıq və təmtəraq verər, kralın cah-calalını bildirərdi.
Tavandakı rəsmlər, güzgülü divarlar, büllur çilçıraq, incə ornamentli döşəmələr, qızılı yapma dekorun bolluğu — qeyri-adi dekorativlik və xüsusi təntənə təəssüratı yaradardı.
O dövrün dəbdəbəli mebelləri zəngin dekorla bəzənərdi.



*Saray interyeri*



*A.Boss*. "Sarayda bal". 17-ci əsr

A3
Quaş
Flomaster
Təbaşir

**Yaradıcı fəaliyyət.** Sinif yoldaşlarınızla birgə "Sarayda şənlik" — *kollektiv panno* yaratmağa çalışın. Əvvəlcə ümumi kompozisiyanı dəqiqləşdirin: divar, tavan və döşəməni. Burada saray interyerini, mebel və əşyaları təsvir edib, bəzəyə bilərsiniz. Çəkilmiş hissələri kəsib ümumi kompozisiyaya yapışdırın. Sonra hərəkətdə olan, rəqs edən, hörmətlə baş əyən insan fiqurlarını kostyumda təsvir edin. Perspektivin qanunlarını nəzərə almağı unutmayın.

- Sarayda hansı mərasimlər keçirilərdi?
- Azərbaycan evi və saray interyerindəki fərq nədədir?

# 16. HERALDİKA — GERB VƏ EMBLEMLƏR

**BİLƏCƏKSİNİZ:**
- Gerblərdə rəng və təsvirin simvolik mənası.
- Azərbaycan şəhərlərinin gerbi.



Orta əsrlərdə Qərbi Avropada insanın cəmiyyətdə hansı təbəqəyə aid olduğunu göstərən daha bir fərqləndirici nişan mövcud idi. Bu, hərbi-zadəgan təbəqəsinin qalxan və dəbilqəsinə, bayraq və at çuluna vurulan *şəxsi nişan — gerb* idi. Gerb üzərindəki nişanlar polad geyimli cəngavərlərə bir-birini uzaq məsafədən tanımağa xidmət edərdi.

**Emblem** — hər hansı ideya və ya anlayışın simvolik, şərti təsviridir: məsələn, at nalı — uğur emblemi sayılır.
**Gerb** — zadəgan nəslinə, şəhərə, ölkəyə mənsub, nişan və emblem təsviri olan lövhə-qalxan.

Bakı şəhərinin gerbi



*Forma* *Emblem* *Gerb*

Gerbdə olan hər bir nişan və rəng müəyyən mənaya malik idi və onu daşıyan şəxs haqqında *simvolik informasiya* verərdi. ***Gerb** — nəslin ləyaqət rəmzi sayılardı.*

- İnsanlara fərqləndirici nişanlar nə üçün lazım idi?
- Gerbləri niyə qalxan üzərində təsvir edərdilər?

**Heraldika** — gerb və nişanları öyrənən elm sahəsidir.

*Gerbin formaları*



Yaradıcı araşdırma:
**gerbdəki heraldik və qeyri-heraldik fiqurlar**

**Heraldik fiqur** — *üfüqi, şaquli və diaqonal üzrə olur.* Burada əsas simvol-elementlər müxtəlif rəng çalarlarıdır.

*Əsas heraldik fiqurlar*



*Üfüqi* *Şaquli* *Diaqonal*

**Qeyri-heraldik fiqurlar** — *təbii, süni və əfsanəvi olur.* Müxtəlif canlı və cansız varlıqların simvolik təsvirindən ibarətdir.

*Əsas qeyri-heraldik fiqurlar*



*Təbii– insan, heyvan, bitki*

*Süni – gəmi, tikili, məişət əşyası, silah*

*Əfsanəvi– əjdaha, qrifon*

**Yaradıcı araşdırma: gerbdə təsvir olunan nişan və rənglərin mənası.**

**Nişan-təsvirlər:** *palıd ağacı, ayı* — güc; *məşəl, açıq kitab* — elm; *arı* — zəhmətsevərlik; *çələng* — şöhrət; *qanadlı ilan* — şər; *əjdaha* — əzəmət; *əl* — igidlik göstəricisi idi.

**Rənglər:** sarı və ağ rəng qızıl və gümüş rənginə uyğun idi. *Qızıl* — zənginlik və ədalət; *gümüş* — paklıq və saflıq rəmzi sayılardı.
Digər beş rəng: *tünd-qırmızı* — məhəbbət; *mavi* — gözəllik və ucalıq; *yaşıl* — bolluq, rifah, *al-qırmızı* — hakimiyyət; *qara* — müdriklik simvolu sayılardı.




- Heraldik fiqurlarda — rəngin, qeyri-heraldik fiqurlarda isə təsvirin simvolik mənası nədir?
- “Heraldika dili” və “Gerbi oxumaq” ifadəsini necə başa düşürsünüz?

Dövlətlər və ayrı-ayrı şəhərlərin də öz gerbi var. Gerblərdə həmin şəhərlərə xas olan xüsusiyyətlər — təbiət, sərvət, xalq əfsanələrinin obrazı və digərlərini əks etdirərdilər.

**Yaradıcı araşdırma: Azərbaycan şəhərlərinin gerbi: rəng və təsvirlərin mənası.**
*Gerbləri “oxuyun” və izah edin.*



*Bakı* *Naxçıvan* *Gəncə* *Şamaxı* *Şəki* *Şuşa* *Lənkəran*

- Müasir cəmiyyətdə simvol və emblemlər mövcuddur? Onlar nəyi bildirir?
- Gerbləri tərtib etmək hansı məqsəd daşıyır?

Rəngli kağızlar
Flomasterlər
Rəngli karandaşlar

Yaradıcı fəaliyyət. Simvolların *şərti dilindən* istifadə edərək, şəxsi və ya ailə gerbini təsvir edin, yaxud aplikasiyasını düzəldin. Qalxanın forması, onun rəngli sahələrə bölünməsi, vacib saydığın simvol-fiqurlar fikirləşin. Özünün və ailənin marağını nəzərə alaraq deviz tərtib edin. Təsvir və rəng həlli ifadəli və aydın olmalıdır. Bu gerb sinif, məktəb otağı, idman klubu və ya hər hansı fənnin emblemi ola bilər. Bu tapşırığı kompüterdə, **Paint** — *qrafik redaktorundan* istifadə edərək işləyə bilərsiniz.

## 17. MÜXTƏLİF DÖVR SƏNƏTKARLARININ YARADICILIĞI



Elə incəsənət əsərləri var ki, öz dövrünün simvoludur. Onları yaradan isə rəssamdır. Rəssamın yaratdığı insan obrazı, yaşadığı dövrün hadisələri *rəngkarlıq, qrafika, heykəltəraşlıq* və *memarlıq* nümunələrində canlanır. İfadə üslubuna görə onların öz dili var. Müxtəlif ifadə üslubu olan bu əsərləri isə bir cəhət birləşdirir — yaradıcılıq.

### MİNİATÜR

Orta əsr Şərq əlyazmalarını bəzəyən təsvirlər — **miniatür** adlanır. Qrafika və rəngkarlığın uğurlu sintezindən yaranmış bədii üslubdur. İllüstrasiya kimi miniatürdə də əlyazmalardakı mətnin məzmunu təsvir edilərdi.

Naxışların kompozisiya zənginliyi, lirik mənzərələr, incə xətt və formaların ritmi, kolorit ahəngdarlığı, obrazların dekorativliyi miniatürə xas olan cəhət idi.

Miniatür sənəti — saray sənəti də adlanardı. Çünki əlyazma kitabların miniatürlərlə bəzədilməsi, əsasən, padşah və şahzadələrin sifarişi olardı.

Orta əsrin mədəniyyət mərkəzi olan Təbriz şəhərində yaşayıb-yaradan miniatürçü-rəssam **Sultan Məhəmməd Nizaməddin** (1470–1555) şah kitabxanasında baş rəssam idi. Onun əsərləri kompozisiya dinamikliyi, koloritin dekorativliyi, incə harmoniyası ilə fərqlənərdi.



*Mütaliə edən şahzadə*

**Miniatür** (latınca — *minium, qırmızı rəng* deməkdir) — kiçikölçülü rəsmlərə deyilir. Orta əsr əlyazma kitablarında birinci sətri və baş hərfi fərqləndirmək, bəzəmək zərurətindən yaranıb. Keçmişdə birinci sətri və ya baş hərfi, adətən, qırmızı rənglə fərqləndirərdilər. Sulu boyalardan istifadə olunaraq çəkilərdi.

İnsan və heyvan fiqurlarının real ifadə üslubu, mənzərə təsvirlərinin inandırıcı real görüntüləri bu əsərləri fərqləndirən əsas cəhətlərdir.

Ustadın ilk əsərlərindən sayılan, dahi şair Ə.Firdovsinin "Şahnamə" əsərinə çəkdiyi miniatür — "Yatmış Rüstəm" adlanır. Ən böyük tərtibat işləri də (742 səhifə) "Şahnamə" əsərinin əlyazmasında çəkilib (258 böyük miniatür). Rəssamın bu əlyazmadakı ən məşhur illüstrasiyası — "Keymurazın saray əhli" miniatürüdür.

Dahi şair N.Gəncəvinin — "Xəmsə", Nəvainin — "Divan" əlyazmasına miniatürlər kamil sənətkar tərəfindən çəkilib. Bu əlyazmalar hazırda Nyu-York şəhərindəki "Metropoliten" muzeyində və Fransanın Milli Kitabxanasında saxlanılır.

Şair Hafizin "Divan" əlyazmasına çəkdiyi miniatürlərdə sadə insanların və saray əyanlarının həyat tərzi təsvir edilmişdir.

Sultan Məhəmməd miniatürlə yanaşı, ayrıca vərəqə üzərində portretlər yaratmışdır. Həmin portretlərdən ən məşhuru kimi "Mütaliə edən şahzadə" əsərini göstərmək olar. Hazırda Rusiya Milli Kitabxanasında saxlanılır.

## Ekskursiya

### Ekspozisiya 1



1



2



3

*__1.__ Yatmış Rüstəm. Miniatür. Ə.Firdovsi. "Şahnamə". __2.__ Keymurazın saray əhli. Miniatür (fraqment). "Şahnamə". Ə.Firdovsi. __3.__ Məhəmməd peyğəmbərin meracı. Miniatür. "Xəmsə". N.Gəncəvi.*

- Miniatür nədir?
- Miniatür və tablodakı rəsmin fərqi nədir?
- Ədəbiyyat dərsliyindən tanış olduğunuz hekayəyə miniatür çəkməyə çalışın.

Ekspozisiya 2

## QRAFİKA və RƏNGKARLIQ

İncəsənət əsərləri yarandığı dövrün hadisələrini, insanların məişət və mədəniyyətini əks etdirən “sənəddir”. Rəssamın yaşadığı və yaratdığı dövr, obraz və mənəvi dəyərlər rəngkarlıq və qrafika əsərlərində bizə gəlib çatır.

Rus rəssamı, knyaz **Qaqarin Qriqori Qriqoryeviç** (1810–1893) Qafqaza həsr olunmuş əsərlərində yurdumuzu, insanların həyat tərzini təsvir etmişdir. O həm də memar kimi fəaliyyət göstərmişdir: Tiflis şəhərində “Sioni” məbədi onun layihəsi əsasında tikilmişdir (1853). Bu məbədin divar rəsmlərini də Q.Qaqarin özü çəkmişdir.




*“Qafqaz kostyumları” adlı albomun ilk nəşri (Paris)*

Parisdə çap etdirdiyi (1847) “Səfalı Qafqaz” və “Qafqaz kostyumları” adlı albomların ilk nəşrləri 19-cu əsrdə Qafqazda yaşayan xalqların etnoqrafiyasının tarixi salnaməsidir.

1859-1872-ci illərdə Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti olan sənətkar *incəsənət tədqiqatçılığı, monumental rəngkarlıq, memarlıq və kitab illüstrasiyası* sahəsində müxtəlif dəyərli əsərlər yaratmışdır. İstedadlı rəssamın yağlı boya, qrafika və akvarellə işlədiyi təsvirlər “Rus muzeyi” və “Tretyakov qalereyası”nda saxlanılır.



*Bakı xan sarayı*



*İrəvan sərdarının sarayında güzgülü zal*



*Bakılı*



*Gənc*



*Zabit*

- Qrafika üslubunda işləyən hansı rəssamları tanıyırsınız?
- Qrafika və rəngkarlıq əsərlərinin əsas xüsusiyyətləri hansılardır?

Ekspozisiya 3

## PLAKAT

Qrafikanın əsas sahələrindən biri olan plakat — mətnlə müşayiət olunan, yığcam, nəzəri ilk baxışdan cəlb edən, böyük formatlı təsvirdir. Plakat, əsasən, məlumat və ya təbliğat xarakteri daşıyır. Obrazın ifadəliliyi, hamının başa düşəcəyi simvollar, kontur və ya siluetlə çəkilən təsvirlərdəki mətn — plakatın əsas əlamətləridir. Böyük rəng ləkələri, kontrast rəng çalarları plakatın dekorativ və emosional xüsusiyyətidir. Rəngin özü bəzən mövzunun simvoluna çevrilir.

Azərbaycan sənətkarları da yaşadıqları dövrün hadisələrini təsvir edən plakatlar yaratmışlar. Rəssam **Elmira Şahtaxtinskaya**nın plakat sahəsində yaratdığı əsərlər ölkəmizin tarixi salnaməsidir. Tariximizi, mədəniyyətimizi əks etdirən plakat silsiləsində rəssam ölkəsinin obrazını yaratmağa nail olmuşdur.

"Azərbaycan — qədim mədəniyyətin mərkəzidir" — silsilə plakatları Qobustan qayaüstü yazılarını əks etdirən plakatdan başlayır.

Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Urməvi, Bəhmənyar, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Səməd Vurğun, Üzeyir Hacıbəyli, Sultan Məhəmməd və digərlərinin portret-plakatları — müxtəlif dövrlərdə yaşayıb-yaratmış tarixi şəxsiyyətlərin obrazı — plakat sənətinin tükənməz imkanlara malik olduğunu göstərir.



*Qobustan*




*Əcəmi Naxçıvani*




*Soltan Məhəmməd*



*Şah İsmayıl Xətai*

- Plakat nədir?
- Plakatın miniatürdən fərqi nədir?

**Plakat** (almanca "plakat", fransızca "placard" — elan, afişa. "Plaquer" sözündən götürülüb — *yapışdırmaq* mənasında işlənir) — İngiltərə və ABŞ-da "poster", Fransada "affich"– afişa adlanır.

Ekspozisiya 4

## HEYKƏLTƏRAŞLIQ

Heykəltəraşlıqda, adətən, möhkəm materiallardan istifadə olunur (daş, mərmər, qranit, ağac, metal, bəzən də gil, terrakota, mayolika, fayans). Heykəltəraşlığın əsas obyekti — insandır, nadir hallarda heyvan və ya əşyalar da təsvir olunur. Dəyirmi heykəl həcmlidir və seyrçi kimi məkanda mövcuddur. Onun ətrafına dolanaraq hər tərəfdən baxmaq olar və o, hər dəfə müxtəlif cür görünəcək. Relyef təsvir isə müstəvi üzərində yaradılır, qabarıq və ya oyuq olur.

Heykəltəraş İbrahim İsmayıl oğlu Zeynalovun (1934-2008) yaratdığı monumental heykəl, büst-portret əsərləri dövrünün dəyərli əsərlərindəndir. 20-ci əsrin ikinci yarısından onun yaradıcılığında tarixi şəxsiyyətlər — Ə.Naxçıvani, İ.Nəsimi, Ş.İ.Xətai, M.F.Axundzadə, M.Ə.Sabir, N.Nərimanov və H.Z.Tağıyevin obrazları heykəltəraşlığımızın inciləri hesab olunur. Bu əsərlər forma plastikliyi, milli koloriti ilə seçilir.

Orta əsr filosof-şairi İ.Nəsiminin obrazında dalğınlıq və sakitlik yalnız zahiri görünüşdür: əllərini arxasında çarpazlayıb, qamətini məğrurcasına dikəltmiş şairin duruşu, uzaqlara dikilmiş düşüncəli baxışları onun alicənab daxili aləmindən, möhkəm iradəsindən xəbər verir. Sakit əzəmətə və təmkinli qətiyyətə malik insan obrazından bəhs edir. Tuncdan hazırlanmış bu abidənin materialı şairin iradəsi kimi möhkəmlik simvoludur.





*Ə.Naxçıvani (relyef)*



*Memar M.A.Hüseynov*

*İ.Nəsimi. (İ.Zeynalov, T.Məmmədov)*

- İ.Nəsimi abidəsinin əsas fərqli əlamətləri haqqında danışın.
- Dəyirmi və relyef heykəllərin fərqi nədir?

Ekspozisiya 5

## MEMARLIQ

Memarlıq — inşa etmək incəsənətidir. Memarlıq əsərlərinə binalar, memarlıq ansamblları aid edilir. Memarlıq — zamanın, xalqın tarixi salnaməsidir.

10 – 12-ci yüzilliklərdə yaşayıb-yaratmış bir çox Azərbaycan memarlarının adları müxtəlif tikililərin daş kitabə və plitələrində dekorativ bəzək formasında bizə miras qalmışdır. Azərbaycan memarlıq tarixində ən qədim abidələrdən biri də Bakı şəhərindəki Qız qalasıdır. Qız qalası memar **Məsud ibn Davudun** adı ilə bağlıdır. Qalanın daş kitabəsində onun adı həkk olunmuşdur: “*Məsud ibn Davud qübbəsi*”.

Memarlıq incisi — Qız qalası nəhəng qaya üzərində ucalır. Qədimliyi ilə seçilən bu abidə səkkizmərtəbəlidir, iki hissədən — dairə və dəniz tərəfə uzanmış uzunsov formadan ibarətdir. Tikili üzərindəki zolaqlar sanki qalaya sarınan zaman qatlarıdır.



*Memar-tədqiqatçı D.A.Axundovun rəsmi.*

*Tikilinin planı (yuxarıdan görünüş)*





*Qız qalasının görüntüləri (fraqment)*

*Qız qalasının divarına həkk edilmiş kitabə (fraqment)*

- Qalanın əsas dekor elementlərini söyləyin.
- Azərbaycanda hansı tikililər qala adlanır?

Rəssamların yaradıcılığı haqqında əlavə məlumat toplayın və təqdim edin.

# MÜASİR DEKORATİV-TƏTBİQİ SƏNƏT

Müasir dekorativ-tətbiqi sənət əsərlərinə keramika, bədii şüşə, metal, qobelen, batika və digərləri aiddir. Onlar öz rəngarəngliyi ilə xalq sənətindən seçilir.

Bu bölmədə siz müasir sənətdə olan yeni materiallar, xüsusiyyətlər və incəliklərlə tanış olacaqsınız.



# 18. MÜASİR İNCƏSƏNƏT SƏRGİSİ



**BİLƏCƏKSİNİZ:**

- Müasir incəsənət sərgisi və dekorativ-tətbiqi sənət nümunələri ilə tanışlıq.
- Azərbaycan Müasir İncəsənət Muzeyinin ekspozisiyası.

Dərsliyin bu bölməsində tanış olacağınız əsərlər — müasir dekorativ-tətbiqi sənətin nümunələridir. Bu sənət əsərlərinə *keramika, şüşə, metal, oyma, vitraj, qobelen, batika* aiddir. Dövrümüzün incəsənəti sayılan və bu yaxınlarda yaradılan sənət nümunələrini **sərgi salonları** və **bədii qalereyalarda** seyr etmək mümkündür.

Yaradıcı ekskursiya: **müasir dekorativ-tətbiqi sənət nümunələri**



*Keramika – gildən hazırlanan məmulat*



*Bədii şüşə*



*Qobelen – xovsuz divar xalçası*



*Vitraj – şüşə üzərində təsvir*



*Bədii metal*





Batika – parça üzərində təsvir



Ağac oyma

**Müasir incəsənət sərgisi** ilə yaxından tanış olaq.

Xalq sənətkarının yaradıcılığından fərqli olaraq müasir rəssam öz ideyalarını həyata keçirməkdə sərbəstdir. Yeni əsər yaradarkən o, material, forma və rənglər üzərində cəsarətlə təcrübə aparır. Rəssamın özünəməxsus yaradıcı tətqiqatlar apardığı məkan **sərgi fəaliyyəti** ilə bağlıdır. Bu fəaliyyət sənətkarın yeni ideya və obraz axtarışı ilə zəngindir.

Sərgi fəaliyyəti — rəssamın inadcıl, gərgin əməyi nəticəsində yaratdığı ***müəllif məhsuludur***. Kütləvi istehsalat məhsullarından fərqli olaraq müəllif məhsulu təkrarolunmazdır. Onlar sanki müəllifin yaradıcı simasını qoruyur, sənətkar şəxsiyyətinin davamçısı olur.

Müasir peşəkar rəssam çox zaman uzaq keçmişə — xalq sənətinin ənənəvi obraz və süjetlərinə müraciət edir. Lakin bu qədim obrazlar onun yaradıcılığında tamamilə fərqli görünür. Rəssam sanki onları öyrənir və müasir cizgilər əlavə etməklə özünəməxsus formada dəyişir.



*Sərgi ekspozisiyası*

## MÜASİR İNCƏSƏNƏT MUZEYİ

Muzeyin ekspozisiyasında 20-ci əsrin ortalarından bu günə qədər Azərbaycan müasir incəsənətinin rəngkarlıq və heykəltəraşlıq əsərləri toplanıb.




*Müasir İncəsənət Muzeyi*

**Ekspozisiyalar haqqında qısa məlumat.** Bu ekspozisiya müşahidələr, axtarışlar və insan ruhunun azadlığını tərənnüm edən əsərlərlə məşhurdur.

Muzeydə Azərbaycan rəssamlarının son 70 il ərzində yaratdıqları mindən çox təsviri sənət əsəri nümayiş etdirilir. Ekspozisiyaların bir hissəsi milli rəssamlıq sənətinin tamamilə başqa bir istiqamətini özündə əks etdirir. Bu, Əşrəf Muradın, Kamal Əhmədin, Mircavad Cavadovun, Rasim Babayevin muzey tərəfindən qorunub saxlanan unikal əsərləridir.



*Müasir İncəsənət Muzeyinin sərgi salonu*

**Muzeyin interyeri.** İnteryerin ağ rəngi, qeyri-adi memarlıq üslubu, metal konstruksiyalar və təkrarolunmaz əsərlər – bütövlükdə müasir incəsənət nümunəsi hesab olunur.





Azərbaycan təsviri sənətinin klassikləri — Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Tağı Tağıyev, Nadir Əbdürrəhmanov, Elmira Şahtaxtinskaya, Oqtay Sadıxzadə, Tokay Məmmədov, Toğrul Nərimanbəyov, Ömər Eldarovun kolleksiyaları və digər ölkələrin müasir sənətkarlarının rəngkarlıq və heykəltəraşlıq əsərləri də muzeydə nümayiş olunur.

Rəngli karandaşlar
Flomasterlər
Akvarel
Quaş

Yaradıcı fəaliyyət. Müasir İncəsənət Muzeyinin ekspozisiyasını təsvir edin. Əvvəlcə onun interyerini, sonra orada sərgilənən əsərləri çəkməyə çalışın. Bunların arasına müasir dekorativ-tətbiqi sənət nümunələrindən istədiyini daxil edə bilərsiniz.

www... www.mim.az

- Dekorativ-tətbiqi sənət sahələri üzrə çalışan müasir peşəkar rəssamı xalq sənətkarından hansı xüsusiyyətlər fərqləndirir?
- Sərgiyə qoyulmuş dekorativ-tətbiqi sənət əsərləri kütləvi istehsal məmulatlarından nə ilə fərqlənir?

**Bədii qalereya** — təsviri sənət əsərlərinin nümayış olunduğu məkan. Adətən, *bədii qalereyaları — "bədii muzey" də* adlandırırlar.
**Sərgi** — incəsənət və digər ictimai nailiyyətlərin insanlar qarşısında nümayişidir.
**Müasir incəsənət** — 20-ci əsrin ortalarından etibarən formalaşan ümumi bədii yaradıcılıqdır.

# 19. KERAMİKA

**BİLƏCƏKSİNİZ:**

- Keramika materialının xüsusiyyətləri: forma, dekor və rəng.

Keçmişdə xalq yaradıcılığında saxsı qablar gündəlik istifadə üçün nəzərdə tutulurdu. Müasir dekorativ-tətbiqi sənətdə bu istiqamət öz təyinatını itirərək, sadəcə, sərbəst yaradıcılıq sahəsinə çevrilmişdir. Bu gün keramikaçı rəssamlar keramika məmulatlarını otaqların bədii tərtibatı üçün tətbiq edir, materialın yeni plastik imkanlarını, rəng və faktura zənginliyini aşkara çıxarırlar.

Keramika — rəngli gildən hazırlanan və xüsusi sobalarda bişirilən məmulatlardır. Çini və saxsı məmulat isə zərif ağ gildən hazırlanır.



*Keramika*



*Mayolika (kaşı)*



*Çini (farfor)*



*Saxsı (fayans)*

Yaradıcı araşdırma: **gilin xüsusiyyətləri**

**Mayolika.** Keramika məmulatları olduqca müxtəlifdir. Onlar forma, dekor və səthinin xüsusiyyətinə görə fərqlənir.
Sobada "bişirilən", üzərinə şirə çəkərkən parlaq və yaraşıqlı görünən dulusçuluq məmulatı ***mayolika* — *kaşı*** adlanır.



Mayolika texnikasında dekorativ pannolar, haşiyələr, kaşı plitələr, həmçinin qab-qacaq və hətta monumental heykəllər hazırlayırlar. Mayolikanın rənglənməsi belə olur: məmulatın səthinə əvvəlcə *şir (emal) yaxılır,* sonra rəsm çəkilərək sobada bişirilir.



**Terrakota.** Keramikaçı rəssamı ***terrakota*** adlanan və "*qovrulmuş torpaq*" mənasını bildirən, *bişirilmiş adi gilin* təbii rəngi də cəlb edir. O həm də bütöv kompozisiyalar yaradır. Bəzən bir əşyada öz fikrini çatdıra bilməyəndə bir neçə əşyanı vahid kompozisiyada birləşdirərək ***ansambl*** yaradır. Rəssam əşyanın bədii obrazını yaradarkən fakturadan da istifadə edir.







Bəzən keramikaçı rəssamlar yaratdıqları məmulatları bilərəkdən əyri və əzilmiş formada, üzərində cızıq və çatlar qoyaraq göstərməyə çalışırlar. Bu, formanı daha da ifadəli göstərməyə kömək edir.

Müasir keramika sənəti olduqca rəngarəngdir və hər zaman yeni görünüşü ilə müasir seyrçini heyran edir.

Ağ və ya qırmızı gil
Plastilin
Quaş

Yaradıcı fəaliyyət. Keramika növlərindən olan *mayolika* və *terrakota* məmulatlarını düzəltməyə çalışın. Xalq sənətinin qədim obrazlarını qeyri-adi müasir formalarda göstərə bilsəniz, o olduqca zövqlü və mənalı görünəcək. Bu əşyalardan həm də bütöv kompozisiya — ansambl yaratmaq olar. Məmulatın rəngini də müəyyən etməyi unutmayın. Əgər düzəltdiyiniz "əsər"in üzərini quaşla bəzəsəniz, özünüzü əsl mayolika sənətkarı kimi göstərmiş olarsınız.

- Keramika rəssamları gilin hansı sirlərinə malikdirlər?
- Qədim saxsı məmulatlar müasir keramikadan nə ilə fərqlənir?

**Keramika** — gildən hazırlanmış dulusçuluq məmulatları (saxsı istehsalı).
**Mayolika** — bişirilmiş, rəngli və üzəri şirlənmiş qab və genişməsaməli gildən hazırlanmış məmulat.
**Terrakota** — bişirilmiş sarı, yaxud qırmızı gil məmulat.
**Çini** (farfor) — yarımşəffaf keramika (Çin gili — bişirildikdən sonra təmiz ağ rəngdə olur).
**Saxsı** (fayans) — adi gildən hazırlanmış, üzərinə şir çəkilmiş məmulat.

# 20. BƏDİİ ŞÜŞƏ



**BİLƏCƏKSİNİZ:**

- Şüşə məmulatının dekorativ-tətbiqi sənət əsəri kimi mahiyyəti.
- Şüşənin xüsusiyyəti və texnologiyası.

Müasir İncəsənət Muzeylərində ***bədii şüşə*** adlanan və müasir rəssamların şüşədən yaratdığı dekorativ-tətbiqi sənət əsərləri nümayiş etdirilir.

Yaradıcı araşdırma: **şüşənin xüsusiyyətləri: rəng, forma və dekor**

**Rəng.** İşıq şüşə üzərinə düşərkən o sanki canlanır. Şüşə ilə işləyən rəssamın işi son dərəcə mürəkkəbdir. Böyük məharət, bacarıqla yanaşı, bu işdə, eyni zamanda kövrək və möhkəm, şəffaf və rəng çalarları ilə zəngin materialı hiss etmək də tələb olunur.

**Forma və dekor.** Qızmar şüşələrdən kürə (soba) qarşısında müxtəlif forma və vahid dekorativ kompozisiyalar yaranır.

Adətən, rəssam özü şüşəni üfürür, ərimiş qızmar damcını fırladaraq onu xüsusi alətlərin köməyi ilə müxtəlif formalara salır. Bu işi rəssam, onun istəyini dəqiqliklə yerinə yetirən *şüşəüfürən usta* ilə birgə yaradır.

Əl və üfürmə üsulu ilə hazırlanmış **hut şüşəsini** qaynar vəziyyətdə uzatmaq, əzmək, yapmaq, kəsmək və ona başqa yapma detallar da bərkitmək mümkündür.





**Hut şüşəsi** — *"Hut" (alman sözü) "şüşəüfürmə emalatxanası"* deməkdir.

Hut alətləri: *şüşəüfürən boru, qaynar şüşəni kəsmək üçün qayçılar, kəlbətinlər, maqqaşlar, şüşəyə forma verən yayma alətləri.*



## Rəng, forma və dekor



*Hut şüşə nümunələri*

Akvarel
Flomasterlər
Pastel təbaşirlər

Yaradıcı fəaliyyət. Müxtəlif formalı şüşə məmulatı çəkin. Bu, fiqur və ya qab ola bilər. Onlardan tək və ya ümumi kompozisiyada — ansambl yarada bilərsiniz. Məmulatın bədii şüşədən olduğunu rənglərlə göstərməyə çalışın və dekoruna xüsusi diqqət yetirin.

- Şüşə məmulatı yaradarkən rəssam hansı mərhələlərdən keçir?
- Keramika və şüşə məmulatlarının rəng, forma və dekorunda hansı oxşarlıq var?

**Bu, maraqlıdır**

Çexiya və Slovakiya ölkələrində şüşə — milli ənənələrin simvolu sayılır.

# 21. BƏDİİ METAL — DÖYMƏ VƏ TÖKMƏ



**BİLƏCƏKSİNİZ:**

- Bədii metalın dekorativ-tətbiqi sənət əsəri kimi mahiyyəti.
- Dəmirin emaletmə üsulları – bədii döymə və bədii tökmə.

Rəssam təxəyyülü onu fərqli obrazlar yaratmağa və yeni texnoloji üsullar axtarmağa sövq edir. Müasir rəssam **metal** kimi "çətin" materialdan da əsərlər yaradır. O, döymə, tökmə, basmanaxış, qaynaq kimi müxtəlif texnika və onun emaletmə üsullarından istifadə edir.



*Bədii metal əsərlər sərgi ekspozisiyasının fraqmenti və nümunələri*

Yaradıcı araşdırma: **bədii metal — forma və siluet**

Metalla iş ustadan "möhkəm" əl və "dəmir" iradə tələb edir. **Bədii döymə** üsulundan istifadə edərkən rəssam, təxəyyülündə canlanan obrazı çox zaman öz əlləri ilə yaratmalı olur.

Közərmiş dəmir parçası bir göz qırpımında sobadan birbaşa *zindan* üzərinə qoyularaq döyəclənir, — zərbələr bir-birini əvəz edir və dəmir parçası tədricən məmulatın formasını almağa başlayır. Dəmir hələ isti ikən, işi başa çatdırmaq lazımdır. "Dəmiri isti-isti döyərlər" atalar sözünü xatırlasanız, bu işin nə qədər çətin olduğunu anlayarsınız.



Döyülmüş materialı hiss edən rəssam, metalın plastik xüsusiyyətlərindən cəsarətlə yararlanır. Yaratdığı dəmir siluetlərin ifadəli kompozisiyası sanki metalın qrafikadakı təsvirinə bənzəyir.



*Bədii döymə üsulu ilə hazırlanmış əsərlər*

Digər texnika — **bədii tökmə** üsuludur. Əridilmiş kütlə xüsusi qəlibə tökülür, orada soyuyaraq gələcək məmulatın formasını alır.

*Bədii tökmə üsulu ilə hazırlanmış əsərlər*



*Zakir Əhmədov. "Muğam"*







*Daşi Nimdakov. "Şahzadə". Metal və mamont sümüyündən hazırlanmış kompozisiya*

Metal ilə işləmə rəssam qarşısında müxtəlif texnikalarda qeyri-adi, təkrarolunmaz orijinal əsərlər yaratmağa geniş imkanlar açır.

Plastilin
Gil

**Yaradıcı fəaliyyət.** Plastilin və gilin plastik xüsusiyyətlərindən istifadə edərək qeyri-adi dekorativ formalı dəmir məmulat düzəltməyə çalışın. Dəmir məmulatın hansı işləmə texnikasında "hazırlanacağını" müəyyən edin — *bədii döymə* və ya *bədii tökmə*. Bunu necə göstərə bilərsiniz?

- Bədii döymə və tökmə üsulunun əsas xüsusiyyətləri nədir?
- Əsərlərdəki fərq və oxşarlıq nədə müşahidə olunur?

# 22. QOBELEN

**BİLƏCƏKSİNİZ:**
- Qobelenin interyerdəki rolu.
- Qobelenin hazırlanma texnikası və xüsusiyyətləri.

Sərgi salonlarında süjet və bədii ornamental kompozisiyalarla zəngin əl işi, xovsuz divar xalçası olan **qobelen** — dekorativ-tətbiqi sənət növlərindən birini də görmək olar. Bu bədii əsərlər divarları bəzədiyi üçün onları *xalça-şəkil də* adlandırırlar.



*Orta əsr qobeleni*





*Qobelen sərgisi və müasir qobelen*

Yaradıcı araşdırma: **xalça-şəkillər**

**Tarix.** Qobelen — orta əsrlərdə kübarlığın rəmzi sayılardı. O, varlı insanların evini bəzəyən dekor vasitəsi, saraylara ecazkar gözəllik bəxş edən sənət nümunəsi idi.

Orta əsrlərdə Avropa ölkələrində daha da təkmilləşən qobelen sənəti geniş yayılaraq kral saraylarını bəzəyirdi. Onu kilimdən fərqləndirən əsas cəhət isə süjetli kompozisiyalarla zəngin olması idi.



*14-cü Lüdovikin təsviri olan qobelen. Fraqment*



*Orta əsr qəsrini bəzəyən qobelen*

**Texnologiya və material.** Öncədən çəkilmiş *eskiz, fikir və ideya,* eyni zamanda *avadanlıq və material* qobelenin toxunması üçün zəruri olan şərtlərdir. Qobelen toxuculuq dəzgahında hazırlanır. Rəssamın hazır karton eskizi dəzgaha yerləşdirildikdən sonra qobelen yun və kətan iplərlə *sadə keçirmə* üsulu ilə toxunur. Bu gün qobelenlə işləyən rəssamlar *sintetik ip, qaytan, metal sap, məftil, dəri parçaları, ağac və at tüklərindən* də istifadə edirlər.



**Təsvir və rəng.** Qobelen toxuyan rəssam üçün rəngli saplar — keramika rəssamı üçün gil, metal rəssamı üçün dəmir, şüşə rəssamı üçün şüşə kütləsi qədər əhəmiyyətlidir. Müəllif qobeleni yaradarkən məharətli toxucu, rəngkar kimi rəngli saplarla sanki "təsvir edir", heykəltəraş kimi saplarla sanki relyefli həcm "yapır", interyerin tərtibatına gəldikdə isə o, memar kimi düşünür.
Qobelendə sapların qalınlığı, keyfiyyəti, rəng çaları, naxışı, müxtəlif materialların bir-birinə uyğunluğu rəssam üçün böyük məna daşıyır.



Keramika, şüşə və metal məmulatı kimi qobelen də müasir interyerin tərtibatına xidmət göstərir. O yalnız divarları bəzəmir, həm də interyerin obrazını yaradaraq, onun ovqatını müəyyən edir.

A3
Pastel təbaşirlər
Flomasterlər
Quaş

**Yaradıcı fəaliyyət.** Qobelen xalçanı çəkməyə çalışın. Onun məzmunu süjet və ya ornamental kompozisiya ola bilər. Qabarıq fakturanı göstərmək üçün vərəqin nahamar olmağı üçün altına relyefli karton, müşəmbə də qoya bilərsiniz. Qobelendə xətt, forma, ritm və rəng uyğunluğunu göstərməyi unutmayın. Sonda divardan asmaq üçün çərçivənin də düzəldilməsi onu tamamlayardı.

- Qobelen xalçadan nə ilə fərqlənir?
- Qobelenin hazırlanmasında əsas xüsusiyyətlər nədir?

**Bu, maraqlıdır** Müasir qobelen sənətinin əsas mərkəzlərindən biri əsrlər boyu xalçaçılıq ənənələri ilə zəngin olan Fransadır.

# 23. ZƏRİF BATİKA

**BİLƏCƏKSİNİZ:**

- Batikanın növ və xüsusiyyətləri.
- Əsərlərdə məna, düşüncə və rəngin rolu.

Müasir rəssamların yaratdığı, olduqca maraqlı və ən zərif dekorativ-tətbiqi sənət növü sayılan **batika** — parça üzərində *təsvirdir*.

Bilavasitə ipək emalı texnologiyası ilə bağlı olan batika Azərbaycan dekorativ-tətbiqi sənətinin daha gənc və müasir növü sayılır. Batika — ipək, pambıq və kətan parçalar üzərində işlənilir.

Yaradıcı araşdırma: **qaynar və soyuq batika**

Rəssam batikanı müxtəlif üsullarla yaradır. ***Qaynar batika*** bu üsullardan biridir. *Əridilmiş mum* əvvəlcə parçadakı rəsm üzərinə hopdurulur. Sonra onunla tədricən rəsmə uyğun bütün rənglər *“açıqdan tündə”* prinsipinə əsasən parça üzərinə vurulur.



*Rəsm*



*Çərçivəyə çəkilmiş parça üzərinə qaynar mum mis və şüşə rezervuar aləti ilə hopdurulur*





*Hopdurma*

*Qaynar batika*









*Rəngləmə*

***Soyuq batika*** üsulu daha sadədir: təsvir parça üzərinə şüşə borucuqlarla, xüsusi maye ilə çəkilir. Parçaya hopan maye sanki *arakəsmə* yaradır və rəngi keçirtmir. Məhz buna görə təsvirin kənar xətləri qapalı olmalıdır ki, rəng ora süzülərək bir-biri ilə qarışmasın. Soyuq batika üsulunda işlənilən əsərləri nəm yerdən uzaq saxlamaq lazımdır.

Rəssam təsviri rəngləyərkən parça üçün nəzərdə tutulan xüsusi boyalardan istifadə edir. Onlar akvarel texnikasında olduğu kimi axıb keçərək bir-birinə qarışır və qeyri-adi rəng çalarları əmələ gətirir.

Soyuq batika texnikasındakı işlərə diqqətlə baxsanız, hər birinin gözəllik haqqında həzin bir hekayə olduğunu hiss edərsiniz.

Sirli əhvali-ruhiyyə yaradan batikanın rəng zənginliyini dekorativ rəngli ləkə və kənar xətlərin ritmində, xasiyyətində müşahidə etmək mümkündür. Bütün bu bədii vasitələr əsərin mənasını ifadə edir.



*Soyuq batika*

İpək parça üzərində işlənmiş bu zərif əsərlərdə rəngkar, dekorativ-tətbiqi sənət və bədii toxuculuq ustasının istedadının yaradıcı fantaziyası özünü göstərir.

Azərbaycan rəssamları da batika üsulunda müxtəlif dəyərli əsərlər yaratmışlar.



*Azərbaycan batika rəssamlarının əsərləri. Bakı Muzey Mərkəzi*

Akvarel
Flomasterlər
İpək parça

**Yaradıcı fəaliyyət.** Vərəq və ya ipək parça üzərində istənilən mövzuya aid kompozisiya yaradın. Batika texnikasında akvarel boya və flomasterdən istifadə etsəniz, əsl müasir dekorativ sənət əsəri yaratmış olarsınız.
Təsviri öncə sadə karandaşla çəkin, sonra boya ilə rəngləyin. Quruduqdan sonra flomasterlə təsvirin kənar xətlərini tamamlayın. Rəngli ləkə və xətlərin ritmini göstərməyə çalışın.

- Batikanın akvarel texnikasından fərqi nədədir?
- "*Batika — dekorativ-tətbiqi sənət növlərindən ən zərifi sayılır*". Bu ifadəni nəyə əsaslanaraq deyirlər?

# 24. BİZ “SƏNƏTKARIQ”



**BİLƏCƏKSİNİZ:**

- Dekorativ-tətbiqi sənətə aid dərslikdə siz nələrə nail oldunuz?
- Yaradıcı işlərdən sərgini təşkil etmək üçün nələri bilmək lazımdır.

Tədris ili sona çatır. İlboyu sinif yoldaşlarınızla birgə yaraşıqlı dekorativ əşyalar, rəsmlər, kollektiv pannolar yaratmısınız. Bu bilik və bacarıqlara yiyələnməkdə dərslik sizə yardımçı oldu.

Əgər siz dekorativ-tətbiqi sənətin yaranması, inkişafı, cəmiyyətdə rolu və mənası, müasir sənətin sirləri haqqında bilik və bacarıqlara yiyələnmişsinizsə, deməli, bu sahədə özünüzü “SƏNƏTKAR” kimi göstərə bilmisiniz.

Dərslikdəki biliklərə əsaslanaraq dekorativ sənətin həyatınızda etdiyi dəyişikliklərin şahidi oldunuz. Bilik və bacarıqlarınızın nəticəsi olan rəsm və dekorativ əşyalar evdə və ya məktəbdə xoş təəssürat yaradar, ən başlıcası isə gözəlliyi dəyərləndirməyi bacaran dostlarınız üçün əsl hədiyyə ola bilər.

İl ərzində birgə yaratdığınız əl işlərini və rəsmləri toplamaq, səliqəli yerləşdirmək və onları ətrafdakılara nümayış etdirmək üçün sərgi təşkil etmək çox yaxşı olardı.







*Məktəb foyesində təşkil olunmuş sərgi*

## Ekspozisiya

Əvvəlcə, yaradıcı işlər üçün məkanı — sinif, foye və ya zal olacağını müəyyənləşdirməli və onların mövzusunu, ölçüsünü dəqiqləşdirməlisiniz. Məsələn, dərslikdəki bölmələr əsasında məktəb divarlarını bəzəyən *dekorativ pannolar* hazırlaya bilərsiniz. Yoldaşlarınızla bunu müzakirə edin — hər qrup istədiyi bölmə üzrə panno yarada bilər.

Yaradıcılıq prosesi zamanı — ideyanın yaranması və onun həyata keçirilməsi, əməkdaşlıq — ən vacib və məsuliyyətli anlardan sayılır. Yaradacağınız dekorativ pannonun uğuru məhz bu amillərdən asılıdır. Burada yerləşdiriləcək işlər xalq yaradıcılığı və müasir sənətə aid ola bilər. Bir sözlə, məktəb interyerindəki sərginin ümumi görünüşünə xüsusi diqqət yetirin.

*Sərginin ümumi görünüşü*

Şaquli kompozisiya




Sərgidəki ekspozisiyaların yerləşdirilməsində sizə *təsvir qaydaları* yardımçı olacaq: *simmetrik və ya asimmetrik yerləşdirmə, rəsm və əşyaların düzülüşündə kompozisiya qanunları, ümumi rəng koloritinin təsiri, ekspozisiyanın məzmunu.*

Ətrafdakı məkan və sərgi arasındakı tarazlığı, işıqlandırma elementlərini nəzərə almaq çox vacibdir.

Üfüqi kompozisiya



Rəsmin aşağı sağ hissəsində onun sizə məxsusluğunu göstərmək lazımdır. Özünüz haqqında məlumatı qeyd edin: *ad, soyad, təvəllüd, yaşadığınız şəhər və ya kənd, oxuduğunuz məktəbin nömrəsi.*

Mövzunun adını və çəkdiyiniz tarixi qeyd etməyi unutmayın.



*"Azərbaycan xalçası".*
*Nicat Həsənli, 11 yaş. Bakı şəhəri,*
*5 nömrəli tam orta məktəb.*
*15 may 2012-ci il.*

*"Güldan".*
*Gülşən Həsənli, 11 yaş. Bakı şəhəri,*
*5 nömrəli tam orta məktəb.*
*15 may 2012-ci il.*

**Fənlər arasında yaradıcı əlaqə.** Sərgini dekorativ-tətbiqi sənətin cəmiyyətdə yeri və rolunu göstərən oyun, viktorina və səhnəciklərlə hazırlasanız, onu şən, intellektual və mənalı edərsiniz. Ən çox sevdiyiniz mövzulara dair təqdimatlar hazırlayıb, slaydlar vasitəsilə onları nümayiş etdirə bilərsiniz. Qrafik redaktorlarda düzəltdiyiniz gerb və emblemləri də unutmayın. Müasir texnologiyalardan istifadə bacarığınız "sərgi" təqdimatını daha da rəngarəng edər.

Sərgi-bayramın sonunda təsviri incəsənət dərslərində yaratdığınız işlərdən qonaqlara hədiyyə də verə bilərsiniz.

**Sərginin qiymətləndirilməsi.** Sərgi — hər zaman xoş hadisələr və təəssüratlarla bağlı *ünsiyyət bayramı* sayılır. Seyrçi qonaqlar yaradıcı işlərdə ifadə olunan fikir və hissləri başa düşməyə çalışır. Bu səylər nəticəsində siz və sizi əhatə edən insanların həyatı daha rəngarəng və maraqlı olur.

Sərgiyə müəllimlərinizi, valideynlərinizi, dostlarınızı dəvət edə bilərsiniz. Onlar dekorativ-tətbiqi sənətin sirlərinə bələd olar, öz təəssüratları ilə bölüşər və sizdən onları maraqlandıran suallara cavab ala bilərlər.

Sərgi — sinif yoldaşlarınızla ilboyu gördüyünüz işin bir növ *qiymətləndirilməsi də* sayıla bilər.

Ən əsası odur ki, dekorativ-tətbiqi sənət aləmində siz öz əllərinizlə ətrafınızda gözəllik yaradır, insanlara sevinc bəxş edirsiniz!

BURAXILIŞ MƏLUMATI

**TƏSVİRİ İNCƏSƏNƏT – 5**
*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Təsviri incəsənət fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Yeganə Qələndər qızı Cəlilova** |
| | **Kəmalə Əhməd qızı Cəfərzadə** |
| | **Taleh Musa oğlu Məlikov** |
| Redaktor | **Kəmalə Abbasova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-032)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 3,8. Fiziki həcmi: 5 çap vərəqi.
Formatı: $70\times100^{1}/_{16}$. Kəsimdən sonrakı ölçüsü: 165×240. Səhifə sayı: 80.
Şriftin adı və ölçüsü: Məktəb qarnituru 10-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tiraj 157923. Pulsuz. Bakı – 2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 08.06.2020**

Nəşriyyat:
**“Bakı” nəşriyyatı**
(Bakı, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:
**“Təhsil NP” MMC**
(Bakı, F.Xoyski küç., 121a)

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

